QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 008 (5480) 16 **yanvar** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Bolqarıstan bizim üçün yaxın, dost ölkədir"

*"Ölkələrimiz arasında bizim səylərimizlə də möhkəmlənən çox sıx dostluq münasibətləri qurulub"*

Səh → 2



Əli Həsənov: "ATƏT-in media azadlığı ofisi tendensioz yanaşmaya yol verməməlidir"



5

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyində xidməti yaşayış binası istifadəyə verilib



5

Sergey Lavrov: Azərbaycanla strateji tərəfdaşlıqdan məmnunuq



4

Daxili İşlər Nazirliyində geniş kollegiya iclası keçirilib



6

Azərbaycan brendi olan "ASAN xidmət"in fəaliyyətə başlamasından 5 il ötür




8

Hikmət Babaoğlu: "ATƏT-in media azadlığı ofisinin münasibəti qərəzlidir"



7

7

"ATƏT dünya ictimaiyyətini aldatmaqdan yan keçməlidir"




7

Bəhruz Quliyev: "ABŞ Dövlət Departamentinin bəyanatı reallığı əks etdirmir"



10

Azərbaycanın ilk pambıqtəmizləmə zavodu xarici ölkələrə mahlıc ixracına başlayıb



# İlham Əliyev: "Bolqarıstan bizim üçün yaxın, dost ölkədir"

## *"Ölkələrimiz arasında bizim səylərimizlə də möhkəmlənən çox sıx dostluq münasibətləri qurulub"*



***Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın Baş naziri Boyko Borisovu qarşılayıb. Görüşdə ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi bildirildi. Bolqarıstanın Baş nazirinin Azərbaycana səfərinin əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olundu, ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.***

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstanın Baş naziri Boyko Borisov görüşdə çıxış ediblər.

**Prezident İlham Əliyev çıxışında diqqətə çatdırıb ki, ölkələrimiz arasında çox sıx dostluq münasibətləri qurulub:**

-Hörmətli cənab Baş nazir. Hörmətli qonaqlar.

Mən sizi səmimi qəlbdən salamlayıram. Xoş gəlmisiniz. Sizi yenidən görməyimə çox şadam. Cənab Baş nazir, siz artıq birinci dəfə deyil ki, ölkəmizə səfər edirsiniz. Mən də Bolqarıstanda teztez olmuşam. Ölkələrimiz arasında bizim səylərimizlə də möhkəmlənən çox sıx dostluq münasibətləri qurulub. Biz bu gün artıq həm siyasi, həm enerji sahələrində ikitərəfli qarşılıqlı fəaliyyətin bir çox vacib məsələlərini müzakirə etdik. Mən cənab Baş naziri Bolqarıstanın Avropa İttifaqına sədrliyi münasibətilə təbrik etdim. Bu, sizin ölkənizin böyük uğurudur, böyük məsuliyyətdir. Əminəm ki, siz bu vacib vəzifənin öhdəsindən şərəflə gələcəksiniz. Əlbəttə ki, bu gün həm də nümayəndə heyətlərinin iştirakı ilə siyasi, iqtisadi, enerji siyasətinə dair vacib məsələləri müzakirə edəcəyik. Bizi bir çox cəhətlər, əsasən də xalqlarımız arasında dostluq əlaqələri və ölkələrimizin rəhbərləri arasındakı dostluq münasibətləri birləşdirir. Mən çox şadam ki, 2018-ci il bizim üçün dostumuzun səfəri ilə başlayır. Xoş gəlmisiniz.

x x x

**Baş nazir Boyko Borisov da öz çıxışında bildirib ki, Bakı ilə Sofiya arasında açılan birbaşa aviareys ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcək:**

-Cənab Prezident, Sizə təşəkkür edirəm.

Hörmətli həmkarlar, mən həqiqətən qeyd edə bilərəm ki, xalqlarımız arasında müstəsna dərəcədə qarşılıqlı rəğbət hissi var. Çox gözəl haldır ki, Prezident İlham Əliyevlə indiyədək razılaşdırdığımız bütün məsələlər həll edilib. Mən hesab edirəm ki, Bakı ilə Sofiya arasında açılan birbaşa aviareys ölkələrimiz arasında yaxın münasibətlərin, turizmin və işgüzar əlaqələrin inkişafına töhfə verəcək. Lakin bu iş artıq görülüb. Qarşımızda yeni vəzifələr durur. Mən ümid edirəm ki, Prezident Əliyev SOCAR şirkəti ilə bağlı müvafiq göstəriş verəcək.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov mətbuata bəyanatlarla çıxış ediblər.

**Əvvəlcə Prezident İlham Əliyev bəyanatla çıxış edib. O bildirib ki, Bolqarıstan və Azərbaycan iki dost ölkə kimi bundan sonra da uğurla əməkdaşlıq edəcək:**

-Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar.

Cənab Baş nazir, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əgər belə demək mümkündürsə, biz 2018-ci ili Azərbaycanda Sizin səfərinizlə açırıq. Bu il birinci xarici qonaq dost ölkənin Baş naziri cənab Boyko Borisovdur.



Bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Biz siyasi sahədə fəal əməkdaşlıq edirik. Yüksək səviyyəli qarşılıqlı səfərlər həyata keçirilir. Mən dəfələrlə Bolqarıstanda səfərdə olmuşam. Cənab Baş nazir Azərbaycana üçüncü dəfədir ki, səfər edir. Cənab Borisov keçən dəfə 2015-ci ildə Azərbaycanda səfərdə idi. O vaxt cənab Baş nazir birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmişdir. Biz Azərbaycanda Sizin bu mərasimdə iştirakınızı yüksək qiymətləndiririk, bunu yadda saxlayırıq və bir daha buna görə Sizə minnətdarıq.

Bu gün biz əlaqələrimizin müxtəlif aspektlərini geniş müzakirə etdik. Bir daha təsdiq etdik ki, Bolqarıstan və Azərbaycan iki dost ölkə kimi bundan sonra da uğurla əməkdaşlıq edəcək. İqtisadi sahədə biz çalışmalıyıq ki, aramızdakı ticarət dövriyyəsinin həcmini artıraq. Hazırda bu, lazımi səviyyədə deyil. Müvafiq göstərişlər verildi ki, qısa müddət ərzində ticarət dövriyyəsinin artırılması istiqamətində konkret addımlar atılsın. Hesab edirəm ki, qarşılıqlı sərmayə qoyuluşu üçün də yaxşı imkanlar var və biz bu istiqamətdə də işləyəcəyik.

Əlbəttə ki, bu gün danışıqlarımızın əsas mövzusu energetika sahəsi ilə bağlı idi. Bildiyiniz kimi, bu sahədə biz tərəfdaşıq. Azərbaycan və Bolqarıstan birlikdə digər ölkələrlə bərabər Cənub Qaz Dəhlizinin icrasını təmin edirlər. Azərbaycanın zəngin qaz yataqları vardır. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Cənub Qaz Dəhlizinin inşası Avropanın enerji təhlükəsizliyinə növbəti töhfəmiz olacaqdır. Hazırda Azərbaycan nefti bir çox Avropa ölkələrinin enerji təhlükəsizliyini təmin edir və yaxın gələcəkdə Azərbaycan qazı da eyni funksiyanı daşıyacaqdır.

*Ardı Səh. 3*

# İlham Əliyev: “Bolqarıstan bizim üçün yaxın, dost ölkədir”

*“Ölkələrimiz arasında bizim səylərimizlə də möhkəmlənən çox sıx dostluq münasibətləri qurulub”*



## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə başsağlığı verib. Başsağlığında deyilir: “Hörmətli cənab Prezident. Ölkənizə məxsus tankerin qəzaya uğraması nəticəsində ekipaj üzvlərinin həlak olması barədə xəbər məni olduqca kədərləndirdi. Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin!”

Əvvəli Səh. 2

> “Hazırda Azərbaycan nefti bir çox Avropa ölkələrinin enerji təhlükəsizliyini təmin edir və yaxın gələcəkdə Azərbaycan qazı da eyni funksiyanı daşıyacaqdır”



Cənub Qaz Dəhlizinin icrası uğurla gedir. “Şahdənz-2” layihəsinin icrası 99 faizə çatıbdır. “Şahdəniz-2” Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır. Eyni zamanda, bu il TANAP layihəsinin başa çatması nəzərdə tutulmuşdur. Bu layihənin icrası da 90 faizə çatıbdır. Beləliklə, bütün işlər qrafik üzrə gedir və bu nəhəng layihə uğurla icra edilir. Cənub Qaz Dəhlizinin icrasından sonra Avropanın enerji təhlükəsizliyi məsələləri daha da möhkəm təməl üzərində qurulacaqdır və biz şadıq ki, Azərbaycan bu məsələyə öz töhfəsini verməkdədir.

Bir neçə ildən sonra 1 milyard kubmetr Azərbaycan qazının Bolqarıstan ərazisinə nəql ediləcəyini nəzərə alaraq, biz bu gün cənab Baş nazirlə müvafiq qurumların rəhbərlərinə göstəriş vermişik ki, tezliklə Azərbaycan şirkəti SOCAR-ın Bolqarıstanda qazlaşdırma ilə bağlı məsələləri araşdırsınlar və imkanları haqqında məlumatlar versinlər.

Azərbaycan ölkə daxilində qazlaşdırmanı uğurla icra edir. Hazırda ölkəmizin 93 faizi qazlaşdırılıb və cari ilin sonuna qədər bu rəqəm 95 faizə çatacaqdır. Bununla paralel olaraq, digər ölkələrdə də SOCAR qazlaşdırma ilə bağlı investor kimi fəaliyyət göstərir, o cümlədən Gürcüstanda və Albaniyada. Albaniyanın qazlaşdırılması ilə bağlı müvafiq memorandum imzalanmışdır. Hesab edirəm ki, Bolqarıstanda da qazlaşdırma ilə bağlı SOCAR-ın investor kimi fəaliyyəti həm SOCAR üçün, həm Bolqarıstan istehlakçıları üçün önəmli hadisə ola bilər. Müvafiq göstərişlər verilmişdir və əminəm ki, danışıqlar tezliklə başlanacaq.

Mən cənab Baş nazirə məlumat verdim ki, keçən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun Bakıda təntənəli açılışı olmuşdur. Bu dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsini yenidən tərtib edir. Bu, Avropa ilə Asiya arasında ən qısa nəqliyyat marşrutu olacaqdır. Artıq Bakı-Tbilisi-Qars dəmir yolu işləyir və məsafə baxımından Avropa və Asiya arasında ən qısa yoldur. Vaxt baxımından isə cəmi iki həftə ərzində Asiyadan Avropaya yüklər bu dəhliz vasitəsilə daşına bilər. Əlbəttə, Bolqarıstan da bu dəhlizin üzərində yerləşdiyi üçün biz göstərişlər verdik ki, müvafiq qurumlar bu məsələni də müzakirə etsinlər və yükdaşımalarının artırılması istiqamətində işlər görülsün.

Bildiyiniz kimi, sabah Bakı-Sofiya marşrutu ilə birinci aviareys təşkil ediləcəkdir. Azərbaycanın “Buta Airveys” şirkəti birinci reysi icra edəcək. Bu da çox əlamətdar hadisədir. Bu reys əlbəttə ki, insanları bir-birinə daha da sıx bağlayacaq, insanlararası əlaqələr güclənəcək, turizmin inkişafına təkan veriləcək və bir sözlə, Bolqarıstan-Azərbaycan dostluğunu daha da möhkəmləndirəcəkdir.

Onu da qeyd etməliyəm ki, biz humanitar sahədə də əməkdaşlığımızı dərinləşdiririk. Azərbaycanda Bolqarıstanın mədəniyyətinə, tarixinə, ədəbiyyatına çox böyük maraq var. Bakı Slavyan Universitetində bolqar dili və ədəbiyyatı mərkəzi fəaliyyət göstərir. Əlbəttə ki, humanitar sahədəki əməkdaşlıq, insanlar arasındakı ünsiyyət bizim dostluğumuzu daha da möhkəmləndirir və möhkəmləndirəcəkdir.

Mən Baş nazir Borisova Bolqarıstanın Avropa İttifaqına sədrliyi ilə bağlı təbriklərimi çatdırdım. Bu, Bolqarıstanın böyük uğurudur və böyük məsuliyyətidir. Əminəm ki, Bolqarıstan bu şərəfli missiyanı uğurla icra edəcək. Eyni zamanda, Bolqarıstanın sədrliyi dövründə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni imkanlar yaradılacaq, xüsusilə hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində iş aparırıq və danışıqlar çox uğurla davam etdirilir. Bir sözlə, əziz dostlar, qonaqlar, sizin səfərinizə biz çox böyük əhəmiyyət veririk. Bolqarıstan bizim üçün yaxın, dost ölkədir, sizin səfəriniz bu dostluğu daha da möhkəmləndirir. Sağ olun.

**Sonra Baş nazir Boyko Borisov bəyanatla çıxış edib:**

-Hörmətli cənab Prezident.

Qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Trapezitsa kompleksi üçün görülən işlərə görə Sizə minnətdarlığımı bildirmək istərdim. Bizim Prezident cənab Radevin salamlarını Sizə çatdırmaq istərdim. Mən ümidvaram ki, Siz bu ilin ikinci yarısında ölkəmizə işgüzar səfər edəcəksiniz və biz Sizin rəhbərliyinizlə böyük nümayəndə heyətini qəbul edə biləcəyik.

Ardı Səh. 4

# İlham Əliyev: “Bolqarıstan bizim üçün yaxın, dost ölkədir”

## *“Ölkələrimiz arasında bizim səylərimizlə də möhkəmlənən çox sıx dostluq münasibətləri qurulub”*



Əvvəli Səh. 3

Mən Sizin söylədiklərinizi təkrar etmək istəməzdim. Lakin mən Sizin dediklərinizin Bolqarıstan üçün əhəmiyyətini qeyd etmək istərdim. Bolqarıstan ərazisinin cəmi 3 faizi qazlaşdırılıb. Eyni zamanda, biz qeyd edə bilərik ki, son günlər, xüsusən də qış dövründə hava çirklənir, özü də səbəb sənaye istehsalı və avtonəqliyyat deyil, məişətdə odun və kömürün yanacaq kimi istifadə olunmasıdır. Biz istərdik, elə məişət yanacağından istifadə olunsun ki, ətraf mühitə zərər yetirilməsin.

SOCAR-ın dəstəyi və Azərbaycan qazının tədarükü sayəsində qonşu Gürcüstan qazlaşdırılıb. Biz çoxdandır ki, Bolqarıstanın qazlaşdırılması üçün iki variantın mövcudluğu barədə danışırıq. Ümid edirik ki, iyun ayında Yunanıstanda interkonnektorun tikintisi başlayacaq və iyulda Türkiyə ilə sərhəddə interkonnektor işə düşəcək. Qeyd etmək istərdim ki, hörmətli Prezident İlham Əliyevin xeyir-duası ilə bizim şirkətlə SOCAR arasında 1 milyard kubmetr həcmində Azərbaycan qazının sərfəli qiymətlərlə çatdırılması məsələsi həllini tapacaq. Əgər hörmətli Azərbaycan Prezidentinin dəstəyi ilə ölkəmizin qazlaşdırılmasına nail olsaq, biz əhalinin sosial cəhətdən zəif təbəqəsi üçün qazın təchizatı mümkünlüyünü təmin edə biləcəyik və onlar daha odundan, kömürdən istifadə etməyəcəklər. Hər iki ölkənin energetika və iqtisadiyyat nazirlərinin iştirakı ilə bu işin həyata keçirilməsi üçün miqdar və müddətə dair plan təsbiq ediləcək. Çünki Azərbaycan tərəfi qazın təchizatının ən sərfəli qiymətlərini təklif edir. Bir milyard kubmetr qaz Bolqarıstanda böyük sayda evləri məişət qazı ilə təmin edəcək.

Nəqliyyat dəhlizlərinə gəlincə, mən xatırlayıram ki, Prezident Əliyevlə çoxdankı ilk görüşümüz zamanı biz bir çox ölkələrin sabotaj etdiyi Azərbaycan və Türkiyə arasında dəmir yolu dəhlizinin inkişafı perspektivləri barədə danışırdıq. Bu isə Avropaya ən qısa nəqliyyat dəhlizidir. Biz, həmçinin bunun inkişafı üçün öz dəmir yolu şəbəkələrimizi hazırlayırıq. Bu, həm Azərbaycan, həm Qazaxıstan, həm də Çinlə əlaqə deməkdir. Bu nəqliyyat qovşağı bizim dəmir yolu stansiyalarımıza, oradan isə bütün Avropa ölkələrinə çıxa bilər. Bizim “Berlin Prosesi”nə əsasən 8 nömrəli, 10 nömrəli nəqliyyat dəhlizlərinə dair birgə gördüyümüz işlər bu yolların Skopyeyə gəlib çatmasına imkan verəcək. Mən Bolqarıstanla müqaviləni ratifikasiya edən makedoniyalı dostlarımızı təbrik etmək istərdim. Bu, çox vacib müqavilədir. Ümid edirik ki, onu sonra bütün ölkələr imzalaya biləcəklər. Bu nəqliyyat dəhlizi Albaniyaya çıxan dəmir yolu xəttinin bir qoludur və avtomobil yolu yaxşı imkanlar açır. Solonikidən şaxələnən avtomobil yolunda iki körpü mövcuddur - Vrusi və Vedeno-Sofiburkas körpüləri. Sofi-Soloniki avtomobil yolunun üçdə iki hissəsi işlək vəziyyətdədir və gələn il tam istifadəyə veriləcək. Hər iki tərəfə böyük həcmdə yüklər daşına biləcək. İcazə verin, Sizi bu dəmir yolunun tikintisinə dair maneələrin aradan qaldırılması münasibətilə təbrik edim. Çox gözəldir ki, bu yol artıq işləyir.

Bolqarıstandan Azərbaycana əsasən kənd təsərrüfatı, iqtisadiyyat sahələrində məhsulların ixracı həyata keçirilir. Biz ümid edirik ki, bu imkanları genişləndirə bilərik. Əgər Azərbaycan qazının Bolqarıstana təchizatı baş tutarsa, biz bu əmtəə mübadiləsini tarazlaşdıra bilərik. Bütün bu investisiyaların yatırılması, birbaşa nəqliyyatın mövcudluğu, - nəzərə alsaq ki, biz Bakıya təyyarə ilə üç saata gələ bilərik, - bizə iqtisadiyyatı, turizmi inkişaf etdirməyə rəvac verəcək və Azərbaycan turistlərinə Bolqarıstanın dağ və dəniz kurortlarına gəlmələrinə imkan yaradacaq. Bolqar turistləri sizin qədim diyarınıza böyük maraq göstərirlər. Bu, hər iki ölkə üçün faydalıdır.

Təbii ki, Brüsseldə bizim həmkarlarımızla söhbət zamanı Avropa Oyunlarının müsəlman ölkəsində keçirilməsinin boykot edilməsi tendensiyası müşahidə olunurdu. Kimsə bu tədbiri pozmağa çalışırdı. Biz bunu bilirik. Təbii ki, bununla bağlı bizim başqa mövqeyimiz vardı. Deməzdim ki, bu, hansısa ayrıca bir siyasətdir. Viza rejiminin sadələşdirilməsi də əlaqələrimizin genişləndirilməsinə töhfə verə bilər. Mən öz üzərimə məsuliyyət götürərək, Avropa İttifaqındakı həmkarlarımla Ukrayna, Gürcüstan və Moldova ilə viza rejiminin asanlaşdırılmasını müzakirə etdim. Düşünürəm ki, biz bu istiqamətdə rahat fəaliyyət göstərə bilərik. Mən bunu etməyə çalışa bilərəm. Amma bu, Avropa İttifaqındakı əsas həmkarlarımdan da asılıdır. Sizə təşəkkür edirəm.

# Sergey Lavrov: Azərbaycanla strateji tərəfdaşlıqdan məmnunuq

***Rusiya ilə Azərbaycanın münasibətləri iki ölkənin prezidentləri və xarici işlər nazirləri səviyyəsində intensiv dialoqa əsaslanır. Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu sözləri Moskvada keçirdiyi mətbuat konfransında söyləyib. Sergey Lavrov deyib: “Ötən il azərbaycanlı həmkarımla qarşılıqlı səfərlər keçirmişik. İki ölkə arasında müntəzəm olaraq humanitar tədbirlər keçirilir.***

Buna nümunə kimi, Humanitar Forumu və başqa tədbirləri göstərmək olar. Ölkələrimiz arasında qarşılıqlı əmtəə dövriyyəsinin və investisiyaların həcmi artmaqdadır. Bu münasibətlər öz axarı ilə inkişaf edir. Ona görə də həmin münasibətlərin reqlamentləşdirilməsi üçün xüsusi sənədlər tələb olunur. Hökumətlərarası komissiya müxtəlif sahələrdə əməkdaşlıq edir. Biz Azərbaycanla strateji tərəfdaşlıqdan məmnunuq”.




Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi barədə suala cavabında vurğulayıb: “Bu il Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə əlaqədar Azərbaycandan və Ermənistandan müəyyən pozitiv impulslar daxil olacağını gözləyirik. Sevindirici haldır ki, ötən il prezidentlər və nazirlər görüşüblər. Həmin görüşlərdə həmsədr ölkələrin nümayəndələri də iştirak ediblər”.

S.Lavrovun fikrincə, indi əsas məsələ təmas xəttində vəziyyətin sabitləşməsi üçün əlavə addımlar atmaqdır. Nazir deyib: “Bu, həm də siyasi tənzimləməyə keçid üçün şərait yaradacaq. Bu məsələni bir sənəd vasitəsilə həmişəlik həll etmək mümkün deyil. Bu məsələyə mərhələli şəkildə yanaşmaq lazımdır. Mərhələli yanaşma münaqişənin qəti tənzimlənməsi və Dağlıq Qarabağın statusu ilə əlaqədar hansı məsələləri dərhal həll etmək mümkün olduğunu və hansı məsələlərin həlli üçün əlavə müzakirələrə ehtiyac olmasını göstərəcək, bunun yollarını müəyyən edəcək”. Nazir qeyd edib ki, Rusiya, ABŞ və Fransa birlikdə bu cür tənzimləməyə şərait yaradılması üçün nə mümkündürsə edirlər.

## Əli Həsənov: “ATƏT-in media azadlığı ofisi tendensioz yanaşmaya yol verməməlidir”



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ATƏT-in media ofisinin rəhbəri Harlem Dezirin Azərbaycanda söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin vəziyyəti ilə bağlı “Amerikanın səsi” radiosuna müsahibəsində onun bəzi fikirlərinə münasibət bildirərək AZƏRTAC-a açıqlamasında deyib: -Təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, bir sıra xarici dairələr və onların nəzarətində olan beynəlxalq QHT və KİV-lərin Azərbaycanda söz və məlumat azadlığının vəziyyəti ilə bağlı qərəzli və subyektiv iddiaları ATƏT kimi mötəbər beynəlxalq qurumun rəsmi nümayəndələri tərəfindən də heç bir araşdırma aparmadan təkrarlanır.

Azərbaycanda söz və məlumat azadlığı təmin edilib, bu sahəni tənzimləyən beynəlxalq standartlara uyğun qanunvericilik bazası formalaşdırılıb, yüzlərlə kütləvi informasiya vasitəsi sərbəst fəaliyyət göstərir, əhalinin 82 faizinin internetə çıxışı vardır. Buna görə də Azərbaycanda media azadlığının durumundan narahatlıq ifadə etmək, guya KİV-lərin qarşısının alınması, jurnalistlərin işgəncələrə məruz qalması, hüquq müdafiəçilərinin həbs edilməsi və cəzasızlıq mühitinin mövcud olması ilə bağlı iddialar irəli sürmək yanlış mövqedir və mövcud reallıqla tam ziddiyyət təşkil edir. Ümumiyyətlə, hər hansı bir ölkədə konkret cinayət halının mahiyyətini təhrif edərək, kontekstdən çıxararaq ümumiləşdirmək, söz və məlumat azadlığının məhdudlaşdırılması kimi qələmə vermək olmaz. Azərbaycan hüquqi, demokratik və qanunun aliliyinin təmin olunduğu ölkədir. Vəzifəsindən, sosial statusundan asılı olmayaraq hər bir kəs, o cümlədən də qanunları, jurnalist etikasını və normalarını pozan, KİV nümayəndəsi adı altında qeyri-qanuni əməllərlə məşğul olan hər bir şəxs buna görə cavabdehlik daşımalıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev jurnalistlərlə çoxsaylı görüşlərində dəfələrlə jurnalist məsuliyyətinin əhəmiyyətinə toxunub, media nümayəndələrini obyektiv olmağa, başqa-başqa dairələrin əlində vasitəyə çevrilməməyə çağırıb. Bu, Azərbaycan dövləti və cəmiyyəti üçün prinsipial məsələdir. İnkişaf etmiş Avropa ölkələrində jurnalistlərə qarşı dözülməz hallar baş verir, onların fəaliyyəti məhdudlaşdırılır, həbs olunur, insanların öz fikirlərini sərbəst şəkildə ifadə etmək hüququnun qarşısı ən sərt metodlarla alınır. Amma təəssüf ki, belə hallar həm beynəlxalq jurnalist təşkilatlarının, həm də ATƏT-in diqqətini cəlb etmir. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, Harlem Dezir və onunla həmrəy olan maraqlı dairələr öz mövqeyində daha balanslı və obyektiv olmalı, Azərbaycana qarşı tendensioz yanaşmaya yol verməməlidirlər.

Azərbaycan dövləti söz və məlumat azadlığının daha da inkişaf etdirilməsi, həmçinin jurnalist təhlükəsizliyinin, mediada şəffaflığın və məsuliyyətli yanaşmanın təmin olunması ilə bağlı ardıcıl tədbirlər görür, qarşıdan gələn dövrdə səylərini davam etdirmək əzmindədir və bu məsələlərlə bağlı bütün beynəlxalq qurumlar və yerli təşkilatlarla açıq dialoqa hazırdır.

## Novruz Məmmədov: “Bir suala ağlabatan cavab tapmaq maraqlı olardı”



“Nəhayət ki, Qərbdə son vaxtlar çox geniş yayılmış, siyasi, əxlaq və kriminal məsələyə çevrilmiş bu prosesə məşhur aktrisa Katrin Denev və bir sıra tanınmış şəxslər münasibət bildirdilər. Bu məsələnin birmənalı qarşılana bilməyəcəyini hamı başa düşür”. SİA-nın verdiyi məlumata görə, bunu Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə köməkçisi, şöbə müdiri Novruz Məmmədov “facebook” səhifəsində paylaşıb.

“Amma 20-25 il bundan əvvəl guya ki, baş vermiş hadisənin indi iddia edilməsinin məqsədlərini bir tərəfə qoyub bir suala ağlabatan cavab tapmaq maraqlı olardı. İnsan haqlarının və azadlıqlarının qorunduğu, tam təmin olunduğu dünyaya bəyan edilən ölkələrdə, necə olub ki, yüzlərlə tanınmış insanlar, hətta superulduzlar belə öz hüquqlarını o zaman, vaxtında müdafiə edə bilməmiş, və ya nə üçünsə etməmiş və hadisədən 20-30 il keçməsini gözləmişlər. Maraqlıdır ki, kişilərlə bağlı oxşar proses də vüsət almağa başlayır. Məgər bütün bunlarla bağlı cəmiyyətə, heç olmasa, bir izahat verməyə ehtiyac yoxdurmu? Yoxsa, kim necə istəyir qəbul etsin, liberal-demokratik cəmiyyətdə nə istəsən edə bilərsən?”-deyə, Prezidentin köməkçisi fikirlərini tamamlayıb.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin vətəndaşlarla görüşünün tarixi dəyişdirilib



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının bölgələrdə vətəndaşların qəbulu ilə bağlı Şirvan şəhərində yanvarın 23-də nəzərdə tutulan görüşünün tarixi dəyişdirilib. Komitədən AZƏRTAC-a bildiriblər ki, vətəndaşların qəbulu yanvarın 30-da Şirvan şəhər Heydər Əliyev Mərkəzində saat 11:00-da baş tutacaq. Qəbulda Salyan, Şirvan, Neftçala, Biləsuvar və Hacıqabul rayonlarının sakinləri iştirak edə bilərlər. Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

## “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyində xidməti yaşayış binası istifadəyə verilib



Muxtar respublikada sərhəd xidmətinin təkmilləşdirilməsi ilə yanaşı, sərhədçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyindəki xidməti yaşayış binasının əsaslı şəkildə yenidən qurulması da bu sahədə görülən işlərin davamıdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yanvarın 14-də sərhədçi ailələri üçün nəzərdə tutulan xidməti yaşayış binası əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək deyib ki, muxtar respublikada aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri ilə bərabər, hərbi hissələrdə zabit və gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdən kənarda qalmayıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsi tərəfindən “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının ərazisindəki yaşayış binasının əsaslı şəkildə yenidən qurulması da bu tədbirlərin davamıdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni ildə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında xidməti yaşayış binasının yenidənqurma işlərindən sonra istifadəyə verilməsi münasibətilə sərhədçi ailələrini təbrik edərək deyib: Ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət göstərilir, xidmətin təşkili üçün hərtərəfli şərait yaradılır. Bununla yanaşı, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, yeni yaşayış binaları tikilir, mövcud yaşayış binaları yenidən qurulur, qüsursuz xidmət edən hərbi qulluqçulara mənzillər verilir. Bütün bunlar da Azərbaycan dövlətinin orduya və zabit ailələrinə göstərdiyi qayğının, ordu quruculuğu sahəsində görülən işlərin nümunəsidir.

Ali Məclisin Sədri deyib: “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında və zastavalarda geniş quruculuq işləri aparılmış, müasir infrastruktur yaradılmışdır. Muxtar respublikada sərhəd xidməti təkmilləşdirilməklə yanaşı, sərhədçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. Bu gün istifadəyə verilən yaşayış binası Sovet dövründə tikildiyi üçün istismar müddətini başa vurmuşdu. Ona görə də binada yenidənqurma işlərinin aparılmasına ehtiyac yaranmışdı. Naxçıvan Muxtar Respublikası büdcəsinin qənaəti hesabına yaşayış binasında yenidənqurma işləri aparıldı, sərhədçi ailələri üçün müasir və təhlükəsiz yaşayış şəraiti yaradıldı. Yaradılan bu abadlığı qorumaq, təmizliyə və səliqə-sahmana diqqət yetirmək isə binada yaşayan ailələrin üzərin düşən vəzifədir.

“Ölkəmizin sərhədlərini qoruyan zabit ailələri üçün yaradılan bu şərait, eyni zamanda, Azərbaycan dövlətinin öz ordusuna, onun zabitlərinə və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsidir”, - deyən Ali Məclisin Sədri bir daha sərhədçi ailələrini təbrik edib.

Sərhədçi ailələri adından minnətdarlıq edən Aytən Quliyeva deyib: Muxtar respublikada aparılan geniş quruculuq işləri “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasını da əhatə edib. Yaşadığımız hərbi şəhərcikdə hərtərəfli şərait yaradılıb. Bu gün müasir mənzillər sərhədçi ailələrinin istifadəsinə verilir. Görülən işlər, yaradılan şərait rahat yaşayışımızı təmin edir. Aytən Quliyeva doğum günü münasibətilə bütün sərhədçi ailələri adından Ali Məclisin Sədrinə təbriklərini çatdırıb. Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə maraqlanıb. Məlumat verilib ki, bina zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir. 65 mənzilli və 6 girişdən ibarət olan binada elektrik, qaz, rabitə, su və kanalizasiya xətləri yenilənib, mənzillərin giriş qapıları və pəncərələri, eləcə də binanın giriş qapıları və dam örtüyü tamamilə dəyişdirilib, izolyasiya qatı verilib, pilləkənlər əsaslı təmir olunub. Dəmir-beton konstruksiyalarla möhkəmləndirilən binanın fasadına travertin üzlük çəkilib. Binanın həyətində də abadlıq işləri aparılıb, yeni park salınıb, uşaq əyləncə qurğuları istifadəyə verilib.

Həmin gün “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyindəki digər yaşayış binasında 2 zabit ailəsi mənzillə təmin olunub. Ali Məclisin Sədrinə məlumat verilib ki, üç və dörd otaqlı mənzillərin hər ikisində əsaslı təmir işləri aparılıb, lazımi kommunal məişət şəraiti yaradılıb.





# Daxili İşlər Nazirliyində geniş kollegiya iclası keçirilib

***Daxili İşlər Nazirliyində (DİN) 2017-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.***

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov iclasda çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquq mühafizə siyasəti sayəsində daxili işlər orqanlarında da fəaliyyətin təkmilləşdirilməsi, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində mühüm işlər görüldüyünü, asayişin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması və digər sahələrdə qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrasının təmin edildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, ölkəmiz cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ötən il də MDB və Avropa məkanında öncül mövqeyini saxlayıb. Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 271-dən 264-ə qədər azalıb. Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə qlobal rəqabətlilik" hesabatına əsasən, "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə Azərbaycanın 21 pillə irəliləyərək 137 ölkə arasında 54-cü yerdə qərarlaşması da diqqətəlayiq fakt kimi vurğulanıb.

İclasda hesabat məruzəsi ilə çıxış edən daxili işlər naziri R.Usubov deyib ki, 2017-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26 min 113 cinayət qeydə alınıb. Onların 93,1 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub. Bu cinayətlərin 86,3 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 13,7 faizini ağır və xüsusilə ağır növlər təşkil edib. Profilaktik iş sahəsində davam etdirilən tədbirlərlə ötən il cinayətlərin ümumi sayı 2016-cı illə müqayisədə 2,7 faiz, o cümlədən ağır və xüsusilə ağır cinayətlər 9, qəsdən adam öldürmələr 9,5, quldurluqlar 23,6, soyğunçuluqlar 16,6, dələduzluqlar 11,8, hədə-qorxu ilə tələb etmələr 10,5, xuliqanlıqlar 15,1, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 12,5, yol-nəqliyyat hadisələri 8,6, qəzalarda ölənlərin sayı 1,2, xəsarət alanların sayı 14,2 faiz azalıb.

Peşəkarlığa həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılması 3,6, ağır və xüsusilə ağır cinayətlərin açılması 2,8, quldurluqların açılması 8,6, soyğunçuluqların açılması 5,5, hədə-qorxu ilə tələb etmələrin açılması 0,3, oğurluqların açılması 6,4, dələduzluqların açılması 2 faiz yaxşılaşıb. Keçmiş illərdən bağlı qalmış cinayətlər üzrə prokurorluq orqanları ilə birgə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri də davam etdirilərək 418 cinayətin açılması təmin olunub. Məruzəçi hüquqpozmaların qarşısının vaxtında alınmasında informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyətini də qeyd edib. Nazirliyin "102" xidmətinə daxil olan məlumatlar üzrə operativ tədbirlər və əməliyyat planlarının vaxtında tətbiqi nəticəsində 1726 cinayətin "isti izlər"lə açıldığını, 10 min 607 hüquqazidd əməlin qarşısının alındığını vurğulayıb. "Təhlükəsiz şəhər" sisteminin texniki imkanları ilə 624 cinayət açılıb, piyadaların vurulması faktları da daxil olmaqla 18 min 132 yol-nəqliyyat hadisəsi aşkarlanıb. Axtarışda olan 84 avtomobil saxlanılıb.

Hüquqazidd əməllərdən zərər çəkənlərin qanuni mənafelərinin müdafiəsində və ədalətin bərpasında mühüm əhəmiyyət kəsb edən cinayətə görə məsuliyyətin labüdlüyünün təmin edilməsi üzrə fəaliyyət də nəzarətdə saxlanılıb, məhkəmə, istintaq və təhqiqat orqanlarından yayınan 3415 nəfər və ya müqayisə edilən dövrə nisbətdə 13 faiz çox təqsirləndirilən şəxs tutulub. İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 76 nəfərin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 39 şəxsin yeri müəyyən olunub. Bütövlükdə axtarış işinin göstəricisi 71,4 faiz təşkil edib.

Daxili işlər naziri qeyd edib ki, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədyönlü şəkildə həyata keçirilib. Hesabat ilində 2698 cinayət törətmiş 1028 cinayətkar qrup zərərsizləşdirilib. Transmilli mütəşəkkil cinayətlərdən olan narkotraffikə qarşı həyata keçirilən tədbirlərlə qanunsuz dövriyyədən 944,5 kiloqram narkotik vasitə çıxarılıb, 78 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz olaraq kultivasiya edilən və yabanı halda bitən 175 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

İnsan alverinin və bu cinayətin qurbanlarının müəyyən edilməsi üzrə Milli Fəaliyyət Planı əsasında görülən işlər də ardıcıl olub. Nəticədə 142 insan alveri və 6 məcburi əmək cinayəti müəyyən edilib, 17 nəfərdən ibarət 8 cinayətkar qrup zərərsizləşdirilib. Qurbanların müdafiəsi, hüquqlarının bərpası və sosial reabilitasiyası üzrə fəaliyyət çərçivəsində 71 şəxsin cəmiyyətə reinteqrasiyası təmin edilib. Ötən il respublikanın hüquq mühafizə orqanları tərəfindən 32 min 500 cinayət işinin istintaqı aparılıb. Onlardan 84 faizi daxili işlər orqanları müstəntiqlərinin icraatında olub. İstintaqı tamamlanmış 9085 cinayət işi ittiham aktı ilə məhkəmələrə göndərilib. Vətəndaşlara dəymiş maddi ziyanın ödətdirilməsi 2016-cı illə müqayisədə 14,5 faiz yaxşılaşaraq 84,9 faiz təşkil edib.

Məruzədə artıq beşinci ildir yol-nəqliyyat hadisələrinin dinamikasında, qəzalarda ölən və xəsarət alanların sayında nəzərəçarpan azalmanın müşahidə olunduğu diqqətə çatdırılıb. Bildirilib ki, yol hərəkəti qaydaları əleyhinə olan hüquqpozmaların aşkarlanması hesabat dövründə 17,6 faiz artaraq 3 milyon 365 min 417 inzibati xəta təşkil edib. Bütövlükdə, müxtəlif inzibati xətalara görə respublika üzrə 2016-cı illə müqayisədə 17,2 faiz çox və ya 3 milyon 481 min 458 protokol tərtib edilib. Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətinin sosial müdafiəsinin və xidmət şəraitinin yaxşılaşdırılması ilə bağlı 2017-ci ildə də mühüm tədbirlər həyata keçirilib. Sistemli şəkildə aparılan müvafiq işin nəticəsi olaraq, komandirlərin və idarəetmə orqanlarının fəaliyyətinin effektivliyi, hərbi hissələrin döyüş qabiliyyəti, əsgər və zabitlərin vətənpərvərlik ruhu və mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə yüksəlib.

Ümumilikdə, ötən il ölkədə keçirilmiş 657, o cümlədən 367 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə Daxili Qoşunların, Əlahiddə Çevik Polis Alayının və ərazi polis orqanlarının şəxsi heyəti tərəfindən asayişin və təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirildiyi də diqqətə çatdırılıb.

General-polkovnik Ramil Usubov bildirib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində Azərbaycan Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrası daim ciddi nəzarətdə saxlanılıb və ardıcıllıqla yerinə yetirilib. Nazirliyin rəhbərliyi tərəfindən 2018, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 416 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həllini tapıb. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq, polis əməkdaşlarının qanunsuz hərəkətləri barədə şikayətlərin sayı 12,2 faiz azalıb. Diqqətə çatdırılıb ki, respublikada cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini, vətəndaşların qanuni mənafelərinin müdafiəsi sahəsində əldə edilmiş müsbət nəticələrə ümumi sayı dünyanın əksər ölkələri ilə müqayisədə xeyli az, yəni, əhalinin hər 100 min nəfərinə 259 vahid nisbətində olan polis qüvvələrinin aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlığı şəraitində nail olunub. Nazir daxili işlər orqanlarına xidməti vəzifələrin icrasında yaxından kömək göstərdiklərinə görə ölkə vətəndaşlarına, hüquq mühafizə və xüsusi xidmət strukturlarının, kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların rəhbərlərinə və əməkdaşlarına təşəkkürünü bildirib.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda hüquqi-demokratik islahatların, böyük infrastruktur layihələrinin və sosial yönümlü proqramların uğurla həyata keçirildiyini xatırladıb.

Respublikamızda ictimai-siyasi sabitliyin, habelə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının mühüm rolunu vurğulayan Fuad Ələsgərov aidiyyəti Dövlət proqramlarından, Milli Fəaliyyət planlarından irəli gələn vəzifələrin yüksək səviyyədə icra olunduğunu, cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahələrində bir sıra uğurlar qazanıldığını qeyd edib. Prezidentin köməkçisi xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyətini, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyini diqqətə çatdırıb.

Məruzə ətrafında Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov, İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Heydər Heydərov, Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyev, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi Faiq Şabanov, Sumqayıt Şəhər Polis İdarəsinin rəisi Əkbər İsmayılov və başqaları çıxış edərək hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün qarşıya qoyulmuş vəzifələrdən, həyata keçiriləcək konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran daxili işlər naziri 2017-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcud olduğunu bildirib. R.Usubov tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin qarşıda duran vəzifələrə yönəldib, konkret tapşırıq və tövsiyələrini verib. Nazir yerlərdə münaqişəli ailələrin vaxtında uçota götürülməsini, barələrində zəruri profilaktik tədbirlərin keçirilməsinə nəzarətin, əvvəllər məhkum olunmuş şəxslərlə profilaktikanın, eləcə də yol hərəkətinə nəzarətin, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin, xüsusən güclü təsirə malik narkovasitələrin aşkarlanması işinin gücləndirilməsini, istintaq və təhqiqat aparatının cinayətkarlığa qarşı mübarizədə aparıcı rolunun, aidiyyəti baş idarə və idarələr tərəfindən ərazi polis orqanlarına idarəçilik təsirinin artırılmasını tələb edib.

Yanvarın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısının dünyanın müxtəlif yerlərində risklərin, təhlükələrin artdığı bir zamanda ölkəmizdə sabitliyin, ictimai təhlükəsizliyin, normal həyatın təmin edildiyini, son illər respublikamızın dinamik inkişafının əsasında məhz sabitlik, əmin-amanlıq amilinin dayanması bir daha vurğulanmasına diqqəti cəlb edən nazir sabitliyin və təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətə verilən bu ali dəyərə cavab olaraq, daxili işlər orqanlarının bütün qurumlarının böyük əzmlə çalışmasının, peşəkarlığın artırılmasının diqqət mərkəzində saxlanılmasının, Azərbaycan Polisinin 100 illik yubileyinin də Vətənə və dövlətə xidmətdə qazanılan yeni uğurlarla qarşılanmasının əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov şəxsi heyət adından əminliklə bildirib ki, ölkədə sabitlik, təhlükəsizlik, fundamental insan hüquq və azadlıqları digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə bundan sonra da etibarlı qorunacaq, qanunla müəyyən edilmiş vəzifələr və qarşıya qoyulmuş bütün tapşırıqlar tam yerinə yetiriləcək.

# “ATƏT dünya ictimaiyyətini aldatmaqdan yan keçməlidir”

***Təəssüf ki, zaman-zaman bir sıra xarici dairələr tərəfindən Azərbaycanda söz və məlumat azadlığının vəziyyəti ilə bağlı qərəzli iddialar irəli sürülür. Onlardan biri ATƏT-in media ofisinin rəhbəri Harlem Dezirin Azərbaycanda söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin vəziyyəti ilə bağlı fikirləridir. Avropa ölkələrində jurnalistlərə qarşı dözülməz hallar baş verdiyi halda, görəsən nəyə görə, belə hallar sözügedən dairələr tərəfindən diqqətə alınmır. Azərbaycana qarşı irəli sürülən qeyri-subyektiv fikirlərin arxasında nə dayanır?. SİA bununla bağlı media nümayəndələrinin fikirlərini öyrənib.***



## “ATƏT dünya ictimaiyyətini aldatmaqdan yan keçməlidir”



**Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli:** “Beynəlxalq təşkilatlar dedikdə onların sırası kifayət qədər genişdir. Hər bir sahə üzrə onlarla beynəlxalq təşkilat fəaliyyət göstərir. Media ilə bağlı fəaliyyət göstərən, yüzlərlə beynəlxalq təşkilatlar mövcuddur. Lakin onların hamısı ciddi təşkilatlar deyillər. Onların arasında müəyyən maraqlara xidmət edən, xüsusi dairələrin sifarişi ilə fəaliyyət göstərən QHT statuslu beynəlxalq təşkilatlar var. Bu cür təşkilatlar zaman-zaman asılılıqda olduğu qüvvələrin təsiri ilə müəyyən bəyanatlar, qondarma hesabatlar səsləndirirlər. Təbii ki onlar real faktlara əsaslanmırlar. Amma bizi təəccübləndirən məsələ bu hesabatların bir yerə toplaşaraq ciddi beynəlxalq təşkilatların hesabatlarında yer almasıdır. Belə ki, ATƏT-in media azadlığı ofisi kimi təşkilatın hesabatında qərəzli fikirlərin yer alması təəssüfləndiricidir. Bu təşkilat öz hesabatında ona qədər bəyanat səsləndirən, hesabat verən təşkilatların heç də hamısının real faktlarla işləmədiyini, onların içərisində sifarişlə çalışanların olduğunu, müəyyən maraqlara xidmət etdiyini nəzərə almalıdırlar. ATƏT-in media azadlığı ofisi hesabat verən təşkilatlardan hansının ciddi və qeyri-obyektiv olduğu bilməlidir. Bunun nəticəsidir ki, beynəlxalq təşkilatlar çox zaman bu cür məsələlərdə zamanında kimlərinsə verdiyi yanlış bəyanatlara istinad edirlər. Lakin bu cür yanlış bəyanatlarla dünya ictimaiyyətini çaşdırmaq mümkün deyil. Artıq zaman dəyişib. Bunu ATƏT də bilməlidir. İndi 2000-ci illərin əvvəlləri deyil. O zaman hər kəs ATƏT, Avropa Şurası, ABŞ Dövlət Departamentinin bəyənatlarını ciddiyə alırdısa, hazırda dünya ictimaiyyəti daha ayıqdır. İnsanlar çox yaxşı bilir ki, bu gün dünyada media ilə bağlı ən böyük problem ABŞ-dadır. Çünki orada media qurumlarına qarşı hücumlar birbaşa dövlət başçısı səviyyəsindədir. Belə olan halda, beynəlxalq təşkilatlar bu cür məsələləri kənarda qoyub, Azərbaycan haqqında fikir irəli sürürsə, bu, artıq qərəzli mövqeyin göstəricisidir. Bu baxımdan hesab edirəm ki, beynəlxalq təşkilatlar hesabat hazırlayarkən bilməlidirlər ki, artıq digər ölkələrdə də, media təşkilatları hesabat hazırlayır, monitorinq aparır və görür ki, ATƏT və digərlərinin hazırladıqları hesabatlar qərəzli, qeyri-real məsələləri üzə çıxarmaq iqtidarındadır. ATƏT bu cür hesabatlar yaydıqda təkcə Azərbaycan üçün yox, həm də özünün imicini nəzərə almalıdır. Real məsələlərə əsaslanmayan məlumatlar yaymaq onların özlərini gözdən salır. Onlar dünya ictimaiyyətini aldatmaqdan yan keçməlidirlər”.

## “Ölkəmizin ünvanına səslənən bu fikirlər məqsədyönlüdür, ictimai rəyə təsir etmək xarakteri daşıyır”



**“Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli:** “Azərbaycan mediasının ümumi inkişaf tempinə, media, internet azadlığına diqqət yetirilsə, şübhəsiz ki, ölkəmiz digər ölkələri qabaqlayır. Azərbaycanda mediaya dövlət səviyyəsində dəstək var. Azərbaycan prezidenti bilavasitə mətbuatın sosial problemlərinin həlli istiqamətində mütəmadi olaraq sərəncamlar verir. Azərbaycanda KİV-lərə dəstək konsepsiyası artıq 2008-ci ildə qəbul olunub və bu müstəvidə 2009-cu ildə KİV-lərə Dövlət Dəstəyi Fondu yaradılıb ki, bu da medianın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ciddi addımlar atır və mətbuatın layihələrinə dəstək verir. Bütün bunların müqabilində Azərbaycan dövləti mətbuatın hansı yönümlü olmasına önəm vermir. Həm müxalif, həm də bilavasitə dövlətin, hakimiyyətin mövqeyini ifadə edən mətbuat bütün layihələrdə yer alır. Bu baxımdan ATƏT-in media azadlığı institutunun Azərbaycana münasibətdə sərgilədiyi mövqe tamamilə qərəzli və ədalətsizdir. Bütövlükdə ATƏT-in və onun ayrı-ayrı strukturların da Azərbaycana qarşı mövqeyində ədalətsizliyin şahidi oluruq. Bu günə qədər Dağlıq Qarabağ münaqişəsinin həllində məsuliyyət daşıyan ATƏT və onun Minsk Qrupu tərəfindən 1 milyon insanın hüquq və azadlıqlarının təmin olunması istiqamətində hər hansı bir addımın atılmadığını nəzərə alsaq, təbii ki, bütün bu iddiaların nə qədər qərəzli olduğunu və ATƏT-in öz prinsiplərindən deyil, ayrı -ayrı ölkələrin, güclərin maraqlarından çıxış etdiyinin şahidi ola bilərik. Azərbaycanda gözlənilən mühüm proses öncəsi bu cür fikirlərin irəli sürülməsi də təsadüfi deyil. Bildiyiniz kimi bu il seçki ilidir və ölkəmizdə bir sıra beynəlxalq tədbirlər gözlənilir. Bu aspektdən də ölkəmizin ünvanına səslənən bu fikirlər məqsədyönlüdür, ictimai rəyə təsir etmək xarakteri daşıyır. Şübhəsiz ki, Azərbaycan cəmiyyəti ölkədə gedən prosesləri diqqətlə izləyir və mediaya olan münasibəti də yaxşı bilir. Bu baxımdan ATƏT-in media azadlığı ofisinin fikirlərinin ictimaiyyətə heç bir təsiri ola biməz”.

## “Ölkəmiz haqqında səslənən qərəzli fikirlərin arxasında inkişaf dayanır”



**“Olaylar” İnformasiya Agentliyi və “Olaylar” qəzetinin baş redaktoru Yunus Oğuz:** “ ATƏT-in media azadlığı ofisinin Azərbaycanda söz, məlumat azadlığı ilə bağlı səsləndirdiyi fikirlər tamamilə yanlışdır. Təbii ki bu, onların öz fikri deyil. ATƏT kim nə deyir, onu da danışır. Bu təşklat Azərbaycana qarşı təzyiq silahıdır. Mən ümumiyyətlə, Avropa qurumlarının əleyhinəyəm. Onlar bizi idarə etmək üçün formalaşıblar. Lakin bunu həyata keçirə bilmədikləri üçün ölkəmizə qarşı qərəzli fikirlər irəli sürməyə, ictimai rəyə təsir etməyə çalışırlar. ATƏT düzgün fəaliyyət göstərirsə, o zaman Dağlıq Qarabağın işğaldan azad olunmasına kömək etsin. Təbii ki, ölkəmiz haqqında hər hansı qərəzli fikirlərin arxasında Azərbaycanın inkişafı dayanır. Ölkəmiz inkişaf etdikcə, bundan narahat olan qüvvələr ictimaiyyətdə mənfi rəy yaratmağa çalışırlar. Sözügedən qüvvələr Azərbaycanın kosmosa gedib çıxa biləcək inkişaf mövqeyindən narahatdırlar. Öz mövqeyi və yolu ilə seçilən ölkəmizin müstəqil siyasət yürütməsi çoxlarında narahatçılıq, qısqanclıq yaradır”.

***Nailə Məhərrəmova***

## Hikmət Babaoğlu: “ATƏT-in media azadlığı ofisinin münasibəti qərəzlidir”



“ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlen Dezren Azərbaycanın ünvanına səsləndirdiyi fikirlər cəfəngiyyatdan başqa bir şey deyil və siyasi şantaj xarakteri daşıyır”. Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. Azərbaycanda söz, mətbuat azadlığının təmin olunduğunu deyən baş redaktor bildirib ki, Azərbaycanda söz və mətbuat azadlığının təminatçısı Prezident İlham Əliyevdir. H. Babaoğlunun sözlərinə görə, Azərbaycan o ölkələrdəndir ki, burada jurnalistlər, media azaddır və heç bir senzura yoxdur: “Üstəlik bütün internet resursları Azərbaycan vətəndaşlarının və internet istifadəçilərinin üzünə açıqdır. Heç bir şəkildə, heç bir internet resursu jurnalistlər və ya informasiya istehlakçıları üçün əlçatmaz deyil. Belə olan halda, söz azadlığının məhdudlaşdırılmasından söhbət belə gedə bilməz. Azərbaycanda informasiya cəmiyyəti mövcuddur. Bu informasiya cəmiyyəti informasiya istehsal və istehlak etməkdə tamamilə sərbəstdir. Azərbaycan Prezidenti ölkə jurnalistlərini özünün köməkçisi, jurnalistlərimiz də də Azərbaycan Prezidentini özlərinin böyük hamisi və dostu hesab edirlər. Bu, Azərbaycan reallığıdır”.

Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik” reytinqində Azərbaycanın ölkəni idarə edən siyasətçilərə ictimai etimad məsələsində birinci 20-likdə yer alan ölkələrdən biri olduğunu xatırladan deputat deyib ki, əslində bu münasibət dolayısı ilə həm də Azərbaycan jurnalistlərinin mövqeyidir: “Bir müddət öncə ATƏT-in “Şərq tərəfdaşlığı” proqramı çərçivəsində Hollandiya şirkəti Azərbaycanda prezident seçkiləri ilə bağlı sorğu keçirmişdi. Həmin sorğuda prezident seçkiləri keçirilsəydi, kimə səsə verərdiniz? sualına cavab verən iştirakçıların 82 faizdən çoxu Prezident İlham Əliyevə səs verəcəklərini bildirmişdilər. Əgər söylədiyimiz məsələlər müxtəlif və fərqli rəy sorğusu keçirən şirkətlər tərəfindən də təsdiq olunursa, o zaman hansı məhdudlaşdırmadan danışmaq olar? Bu rəy Azərbaycan xalqının ümumi rəyidir”. “Media institutu Azərbaycan cəmiyyətinin digər aparıcı institutları kimi xalqımızın azad iradəsini təmsil edir. Görünür, bəzi şəxslərə Azərbaycanı şantaj etmək üçün yeni vasitələr lazımdır. Milli maraqlarımıza zərbə vuran və onları himayə edən bəzi şəxslər konkret əməllərinə görə Azərbaycan qanunları qarşısında cavab verirlər və bundan sonra da cavab verəcəklər. Ona görə də, ATƏT-in media azadlığı ofisinin Azərbaycanla bağlı irəli sürdüyü bu münasibət qərəzlidir və heç bir obyektiv əsaslara söykənmir “ - deyə, H. Babaoğlu əlavə edib.

## Bəhruz Quliyev: “ABŞ Dövlət Departamentinin bəyanatı reallığı əks etdirmir”



ABŞ Dövlət Departamenti amerikalı turistləri xarici ölkələrə səfəri zamanı təhlükəsizlik riskləri haqqında məlumatlandırmaq üçün yeni sistem işə salıb. Azərbaycan təhlükəsizliyə təhdid baxımından ikinci kateqoriya ölkələr siyahısına daxil edilib.

Məsələ ilə bağlı SİA-ya açıqlama verən “SƏS” Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib ki, ABŞ Dövlət Departamentinin Azərbaycan haqqında açıqlamaları həqiqəti əks etdirmir: “Bildiyiniz kimi zaman-zaman ABŞ-dan olan müxtəlif anti-Azərbaycan qüvvələr də ölkəmizin əleyhinə müxtəlif bəyanatlar və bu tipli reallığa uyğun olmayan sərsəm fikirlər səsləndiriblər. Bu həqiqət ola bilməz. Çünki indiyədək Azərbaycanda keçirilən müxtəlif yerli və beynəlxalq tədbirlərdən, idman yarışlarından xoş xatirələrlə ayrılan iştirakçıların özləri də etiraf edirlər ki, Azərbaycan sabit, sakit, təhlükəsiz və tursitlər üçün əlverişli bir ölkədir. Məhz bunun nəticəsidir ki, son dövrlərdə ölkəmizdə turistlərin sayı da sürətlə artıb. Bir sözlə ABŞ Dövlət Departamentinin yaydığı informasiya sərsəm bir bəyanatdır”. Media Qrupunun rəhbəri bildirib ki, bu gün Avropa ölkələrinin əksəriyyətində terror hadisələri, qanlı münaqişələr baş verir və separatizm meyilləri mövcuddur: “Amma təəssüflər olsun ki, ABŞ Dövlət Departamenti ya bunu görmür, ya da görməzlikdən gəlir. Azərbaycanın riskli ölkələr siyahısına salınması anormal baxışdan xəbər verir. Bununla heç cür razılaşmaq olmaz. Hesab edirəm ki, bu anti-Azərbaycan qüvvələrin əli ilə həyata keçirilən növbəti bir təxribatdır”.

Bəhruz Quliyev əlavə edib ki, Azərbaycanda möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlik mövcudur: “Ümumiyyətlə, Azərbaycanda dini nöqteyi-nəzərdən heç bir qarşıdurma ehtimalı belə gözlənilmir. Azərbaycan tolerantlıq nümunəsidir və ölkədə dini icmalar arasındakı münasibətlərdə tam sabitlik hökm sürür və multikultural dəyərlərə böyük önəm verir. Amma bu gün Avropa və ABŞ-ın özü belə multikultural dəyələrdən imtina edir. Bununla bağlı ABŞ-da, Qərb ölkələrində müxtəlif dövrlərdə aksiyalar keçirilir. Hesab edirəm ki, Azərbaycan bu ölkələrə örnək ola bilər. Çünki, ölkəmizdə müxtəlif dinlərə hörmətlə yanaşılır, insanların hüquq və azadlıqları təmin edilir”.

# Azərbaycan brendi olan "ASAN xidmət"in fəaliyyətə başlamasından 5 il ötür

Yanvarın 15-də "ASAN xidmət"in fəaliyyətə başlamasından 5 il ötür.

Ötən müddət ərzində vətəndaşlara keyfiyyətli və şəffaflıq prinsipləri əsasında xidmətlər təqdim edən "ASAN xidmət" qısa müddətdə əhalimizin inamını və rəğbətini qazanmaqla yanaşı, ölkə hüdudlarından kənarda da kifayət qədər tanınır və öyrənilir.

**"ASAN xidmət": Yaranması və məqsədləri**

Fəaliyyətini vətəndaşların vaxtlarına qənaət etməklə rahat və nəzakətli davranış mühitində dövlət xidmətlərini əldə etməsi prinsipi əsasında quran "ASAN xidmət" mərkəzləri dövlətimizin başçısı İlham Əliyevin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılıb. İlk "ASAN xidmət" 2013-cü il yanvarın 15-də vətəndaşlara xidmət göstərməyə başlayıb. Pilot layihə olduğu üçün 1 nömrəli "ASAN xidmət" mərkəzinin xidmətlərindən ilkin mərhələdə paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonlarının sakinləri yararlanıblar.

Hazırda 12 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir ki, onlardan 5-i paytaxt Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı və Qubadadır. Gələcəkdə isə Mingəçevir, Şəki, İmişli, Ağcabədi, Tovuz, Şamaxı, Kürdəmir və Cəlilabadda "ASAN xidmət" mərkəzlərinin açılması nəzərdə tutulub.

"ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlardır. Mərkəzlər dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir.

Bu gün "ASAN xidmət" mərkəzlərdə vətəndaşlara 10 dövlət orqanı ilə yanaşı, özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 250-dən çox müxtəlif xidmətlər göstərilir.




*"ASAN xidmət" vətəndaş-məmur münasibətlərinə yenilik gətirdi, rüşvətxorluğa qarşı mübarizədə bizə daha da böyük güc verdi. Yəni, göstərdi ki, rüşvətxorluqla mübarizə aparmaq və qələbə çalmaq da mümkündür. "ASAN xidmət"in mənası və əhəmiyyəti bundan ibarətdir".*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

## "ASAN xidmət" mərkəzinin əsas prinsipləri: Operativlik, şəffaflıq, innovativlik...

"ASAN xidmət" vətəndaşlara dövlət və özəl xidmətləri vahid məkandan göstərilməsini təmin edən nadir bir modeldir və e-hökumətin əhəmiyyətli tərkib hissələrindən biridir. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur.

Xidmətlərin göstərilməsində innovativ metodlar vətəndaşlara vaxtlarına və vəsaitlərinə qənaət etməyə imkan verir. Belə ki, vahid mərkəzi ziyarət edən vətəndaşlar onlarla dövlət və özəl təşkilatlar tərəfindən göstərilən müxtəlif xidmətlərdən istifadə edə bilərlər.

Xidmətlərin göstərilməsinə görə rüsumlar banklar vasitəsilə ödənilir ki, bu da "ASAN xidmət"in əsas prinsiplərindən olan şəffaflığın təminində önəmli pay sahibidir. Mərkəzlərdə həyata keçirilən bütün əməliyyatlar və tranzaksiyalar videomüşahidə kameralarının vasitəsilə qeydiyyata alınır. Beləliklə, bürokratik maneələr və korrupsiya halları tam aradan qaldırılır.

"ASAN xidmət" mərkəzlərində növbələrini gözləyən vətəndaşların vaxtlarını rahat və mənalı keçirmələri üçün bütün şərait yaradılıb. Mərkəzlərdə vətəndaşlar internet-kafe xidmətlərindən, ana və uşaq otaqlarından, uşaq meydançasından, həmçinin özünəxidmət məntəqələrindən istifadə edə bilərlər.

"Vətəndaş həmişə haqlıdır" şüarını rəhbər tutan "ASAN xidmət"də nəzakətlilik və etik davranış qaydalarına ciddi əməl olunur. Mərkəzlərin əməkdaşları ixtisasartırma üzrə müxtəlif təlimlərdən keçirlər, beləliklə daim etik davranış səriştələrini artırmış olurlar. "ASAN xidmət"də yeni ideyalar və innovativ metodların tətbiqi vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini artırmağa xidmət edir. Əlbəttə, bütün bunların nəticəsidir ki, "ASAN xidmət" mərkəzlərinə edilən müraciətlər gündən-günə artmaqdadır. Hazırda mərkəzlərə daxil olan müraciətlərin sayı 19 milyondan çoxdur.

## Hər bir vətəndaşa xidmət edən "ASAN xidmət"

**1 milyon 280 min 941 vətəndaşa səyyar formada xidmət göstərilib**

Qeyd olunduğu kimi, bu gün ölkə ərazisində 12 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir və gələcəkdə bu mərkəzlərin sayının daha da artırılacağı gözlənilir. Lakin "ASAN xidmət" mərkəzlərin təsis olunmadığı bölgələrdə yaşayan vətəndaşlara da xidmət göstərməyi özünə borc bilir. Regionlardakı əhaliyə xidmətlərin çatdırılması və mərkəzlərə gəlmədən vətəndaşların xidmətlərdən yararlanmalarının təmini üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilmiş irihəcmli xüsusi avtobuslar vasitəsilə səyyar formada əhaliyə xidmətlər göstərilir.

Hazırda 10 səyyar "ASAN xidmət" avtobusu vətəndaşlara xidmət göstərir. 2017-ci il fevralın 1-dən etibarən səyyar "ASAN qatar" yerlərdə vətəndaşlara xidmət göstərməyə başlayıb. 2013-cü ilin iyun ayından etibarən 1 milyon 280 min 941 vətəndaşa səyyar formada xidmət göstərilib. Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır. Bu gün artıq demək olar ki, "ASAN xidmət" bu əsas məqsədinə nail olub. Belə ki, 2013-cü ildən bu günə kimi keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 98-100 faiz arasında dəyişir.

## Çoxşaxəli fəaliyyət istiqamətləri

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi vətəndaşların məişət sahəsində qarşılaşdıqları məsələlərin həlli, ölkəmizdə turizm sektorunun, kiçik sahibkarlığın, gənclərin inkişafı və digər istiqamətlərdə də uğurlu fəaliyyəti ilə diqqəti cəlb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 4 may tarixli Fərmanında verilmiş tapşırığa müvafiq olaraq vətəndaşların məişət sahəsində qarşılaşdıqları məsələlərin həlli üçün kommunal sahədə xidmətlər göstərən "ASAN kommunal" mərkəzləri yaradılıb. "ASAN xidmət"in fəaliyyət prinsipləri və standartlarını rəhbər tutan "ASAN kommunal" mərkəzlərində Azəriqaz, Azərsu, Azərişıq şirkətlərinin 45 növ kommunal xidmətləri göstərilir. Hazırda Bakı şəhərində 2 "ASAN kommunal" mərkəzi fəaliyyət göstərir. Bu günə kimi mərkəzlərə 266 min 719 vətəndaş müraciəti daxil olub.

Dövlətimizin başçısının tapşırığına əsasən yaradılan "ASAN radio" 2015-ci il dekabrın 24-dən etibarən 100 FM dalğasında yayıma başlayıb. "ASAN radio" dövlət xidmətləri sahəsində ixtisaslaşan ilk və yeganə radiodur. Könüllülər "ASAN xidmət" fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 13 mindən çox könüllü gənc qoşulub. Hazırda könüllülərin sayı 781-dir. Əsas missiya könüllülərin inkişafına şərait yaratmaqla dövlətimizin dayanıqlı inkişafı üçün çalışan, cəmiyyətə faydalı gənc vətəndaşlar qazandırmaqdır.

Həmçinin gənclərin müxtəlif təlimlərdə iştirakı, təcrübə qazanmaları, layihələr həyata keçirmələri üçün də geniş imkanlar yaradılır. Belə ki, "Master 2" proqramı çərçi-

# Azərbaycan brendi olan "ASAN xidmət"in fəaliyyətə başlamasından 5 il ötür

vəsində 1723 gənc 7 həftəlik müddətdə müxtəlif dövlət qurumlarında və özəl təşkilatlarda təcrübə keçib və təlimlərdə iştirak ediblər. Bu günə kimi könüllülər tərəfindən 1000 təlim və 300-dən çox layihə həyata keçirilib.

"ASAN Könüllüləri" Təşkilatı gənclərin hərtərəfli inkişafı üçün "ASAN akademiya", "Könüllülər yurdu Azərbaycan", "Mədəniyyət carçısı", "Könüllülər parlamenti", "ASAN məktub", "Əsgərə məktub" kimi böyük layihə və proqramlar həyata keçirməkdə davam edir. "ASAN xidmət" könüllülük fəaliyyəti gənclərin məsuliyyətli vətəndaş kimi formalaşdırılmasını prioritet hesab edir. 844 könüllü "ASAN kadr" portalı vasitəsilə işlə təmin olunub. Qeyd etmək lazımdır ki, ASAN könüllülərinin "ASAN məktub" və "ASAN kadr" layihələri qabaqcıl təcrübələr kimi Birləşmiş Millətlər Təşkilatının "Cənub-Cənub əməkdaşlığı çərçivəsində qabaqcıl mexanizmlər və həllər" adlı portalına daxil edilib.

Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativliyi və şəffaflığı təmin edən elektron viza sisteminin yaradılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2016-cı il iyunun 1-də "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN viza" sisteminin yaradılması haqqında" Fərman imzalayıb.

Sistem vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər standart elektron vizanı 3 iş günü, sürətləndirilmiş qaydada isə 3 saat ərzində 3 addımla ( müraciət et, ödəniş et və e-vizanı yüklə) əldə edə bilər. Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə elektron viza verilməsi üçün "ASAN viza" sistemi 2017-ci il yanvarın 10-dan fəaliyyətə başlayıb. Hazırda "ASAN viza" portalı 7 dildə (Azərbaycan, ingilis, fransız, ispan, ərəb, fars və rus) fəaliyyət göstərir. Dövlətimizin başçısının Fərmanı ilə yaradılan "ASAN viza" sistemi qısa müddət ərzində ölkəmizə turist axınının artmasına şərait yaratdı. Bu günə kimi 278 min əcnəbi və vətəndaşlığı olmayan şəxslərə elektron viza verilib. İlk beşliyə İran, Pakistan, Birləşmiş Krallıq, Hindistan və Türkmənistan daxildir.

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı il 23 sentyabr tarixli Fərmanı ilə yaradılıb. "ABAD" publik hüquqi şəxsin yaradılmasında məqsəd Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələrin həyata keçirilməsidir.

"ABAD" publik hüquqi şəxsin fəaliyyətinin prioritet istiqamətləri dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək göstərməkdir.

"ABAD" öz fəaliyyətini regional mərkəzlər vasitəsilə həyata keçirir. Pilot çərçivəsində belə mərkəzlər Masallı, Balakən və Quba rayonlarında işə başlayıb. Bu rayonlarda "ABAD"çı ailələrinə mürəbbə, cem, ət və süd məhsullarının istehsalı üçün xüsusi 18 konteyner verilib. "ABAD" fəaliyyəti zamanı dekorativ-tətbiqi sənət ilə məşğul olan 159 və kənd təsərrüfatında çalışan 27 ailəyə dəstək verib. Ümumilikdə 153 sahibkarlıq subyekti yaradılıb.

Satışları təşkil etmək məqsədilə "ABAD" Bakı şəhərinin müxtəlif yerlərində sərgi-satış mərkəzləri açıb - İçərişəhərdə, Heydər Əliyev Beynəlxalq Aeroportunda ("Duty free" zonası), Bakı Dəmir Yolu Vağzalında və Milli Gimnastika Arenasında. Belə bir sərgi-satış mərkəzi turizm prizmasından çox perspektivli olan Şamaxının Dəmirçi kəndində də fəaliyyət göstərir. Bu gün "ABAD" leyblı altında buraxılan məhsulların (mürəbbələr, cemlər, kolbasa və pendirlər) ölkənin ən iri hipermarketində satışı təşkil olunur.

## Beynəlxalq əməkdaşlıq və qazanılan mükafatlar

"ASAN xidmət"in qazandığı uğurlar qısa müddət ərzində dünyanın müxtəlif ölkələrində maraqla qarşılandı. Azərbaycanın "ASAN xidmət" təcrübəsinin öyrənilməsinə başlanıldı. 2016-ci il iyulun 12-də Əfqanıstan Prezidentinin sarayında dövlət xidmətlərinin göstərilməsinin mütərəqqi mexanizminin yaradılmasına dair Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib. Anlaşma Memorandumu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Əfqanıstan Respublikasının Maliyyə Nazirliyi arasında imzalanıb. Bu Memoranduma əsasən Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi mexanizmi olan "Asan Khedmat" təsis edildi. "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirən Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani deyib: "Əfqanlar buraya gəldikdən sonra öz ölkələrində dəyişiklik etmək inamı ilə qayıdırlar. Bunların əyani sübutu "ASAN xidmət"dir. Maliyyə naziri səfər etdikdən sonra bu təcrübə dərhal tətbiq olunmağa başladı. Müvafiq qurum yaradıldı".

Bundan başqa, İtaliya, Koreya, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb.

Artıq dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" modeli müxtəlif mükafatlar qazanıb. "ASAN xidmət" 2015-ci ildə BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diploma təltif olunub. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və tabeliyində olan "ASAN xidmət" mərkəzləri Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən və müxtəlif dövlətlərdən olan 700-dən çox müəssisənin müraciət etdiyi müsabiqənin "Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması" sahəsi üzrə qalibi olub.

Həmçinin 2014-cü il dekabrın 15-də Dövlət Agentliyi və Sabirabad "ASAN xidmət" mərkəzi OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikata layiq görülüb. Standartın əsas tələbi xidmət mərkəzlərinin fəaliyyət göstərdiyi inzibati binalarda təhlükəsiz və sağlam iş mühitinin yaradılması, əməkdaşların effektiv, şəffaf və operativ xidmət göstərməsi, eyni zamanda, vətəndaşların tam təhlükəsiz, keyfiyyətli xidmət almağının təmin edilməsi üçün zəruri tədbirlərin nəzərə alınmasıdır. Zəruri tələblər beynəlxalq ekspertlər tərəfindən qiymətləndirilərək, Dövlət Agentliyinin və Sabirabad "ASAN xidmət" mərkəzinin fəaliyyət göstərdiyi inzibati binanın beynəlxalq standartlara uyğun tikildiyinə dair qərar verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikata layiq görülüb.

Keyfiyyətli İdarəetmə Sisteminin Dövlət Agentliyinin işində tətbiqi "ASAN xidmət" mərkəzlərində baş verən hər bir prosesin şəffaf mexanizmlərə və qaydalara əsaslanmaqla həyata keçirilməsinin göstəricisidir. Hər bir prosesin başlanğıcı və sonu arasındakı fəaliyyət tam aydındır və tətbiq olunan şəffaf mexanizmə uyğundur.

Bu gün "ASAN xidmət" ictimai xidmət sahəsində çox ciddi dönüş yaradıb, həmçinin yeni ideyalar, innovasiyalar tətbiq etməklə vətəndaşlarımıza ən keyfiyyətli xidmətlər təklif edir. Azərbaycanı tanıdıran və təbliğ edən milli brendimiz olan "ASAN" bu gün Azərbaycanda yeni, müasir, mədəni, xalqımızın mentalitetinə xas olan dəyərləri tətbiq edir, onları təbliğ edir. Bir sözlə, "ASAN" ölkəmizin ictimai həyatında böyük rol oynayır.

***Əsəd Məmmədov***
***AZƏRTAC-ın müxbiri***

## Asiya İnkişaf Bankı Strateji Yol xəritələrində nəzərdə tutulan tədbirlərə texniki dəstək verəcək



Asiya İnkişaf Bankı Strateji Yol xəritələrində nəzərdə tutulan tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün prioritet istiqamətlər üzrə dəstək göstərəcək.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Strateji Yol xəritələrində İqtisadiyyat Nazirliyinin icraçı olduğu tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi və tədbirlərin icrasında səmərəliliyin təmini məqsədilə beynəlxalq təcrübənin tətbiq edilməsi zəruri olan prioritet istiqamətlər üzrə mümkün dəstəyin göstərilməsi ilə bağlı Asiya İnkişaf Bankının nümayəndələrinin iştirakı ilə işgüzar görüş keçirilib. Asiya İnkişaf Bankının nümayəndələri tərəfindən Strateji Yol xəritələrində nəzərdə tutulmuş və texniki dəstəyin göstərilməsi mümkün olan istiqamətlər barədə məlumat verilib və təklif edilən texniki dəstəyin göstərilməsi üçün növbəti addımların müəyyənləşdirilməsi istiqamətində birgə müzakirələr aparılıb.

## Akkan Suver: "Ekspo 2025" sərgisinə ev sahibliyi istəyi Azərbaycanın hərtərəfli inkişafının göstəricisidir



Bakı şəhərinin "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyi etmək istəyi Azərbaycanın hərtərəfli inkişafının göstəricisidir. Bu sözləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver deyib. Azərbaycanın Antalyada keçirilmiş "Ekspo 2016" və Astanadakı "Ekspo 2017" sərgilərində uğurla təmsil olunduğunu vurğulayan professor deyib: "Əslində "Ekspo 2025" sərgisinə ev sahibliyi etmək üçün çox güclü rəqiblərlə mübarizə aparmaq özü Azərbaycanın uğurudur". Akkan Suver əminliklə bildirib ki, Azərbaycan 2012-ci ildə "Avroviziya" mahnı müsabiqəsinə, 2015-ci ildə birinci Avropa Oyunlarına tamamilə fərqli təşkilatlarla ev sahibliyi etdi və bununla da beynəlxalq yarışların təşkilinə yeniliklər gətirdi. Bu, onu deməyə əsas verir ki, Azərbaycan "Ekspo 2025" sərgisinə də yeniliklər gətirə, bu tədbirin gələcək inkişafına töhfələr verə bilər. "Əminik ki, təşkilat komitəsi, ümumiyyətlə, beynəlxalq ictimaiyyət seçim məsələsində bu amili dəyərləndirəcək", - deyə o əlavə edib.

Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyini xatırladan professor beynəlxalq ictimaiyyətin "Ekspo 2025"lə bağlı Bakıya dəstək verməklə Azərbaycanın real inkişafına və dövlətçilik tarixinə böyük bir hədiyyə edəcəyini vurğulayıb.

# Azərbaycan xalq-iqtidar birliyi olan ölkədir

***Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nın "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyası ilə bağlı hesabata əsasən, Azərbaycan dünyada əhalinin dövləti idarə edən siyasətçilərə ən çox etimad göstərdiyi 20 ölkə arasındadır. "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyada Azərbaycanın dünyada ilk 20 ölkə arasında qərarlaşması birbaşa əhali və biznes nümayəndələri arasında aparılan sorğulara əsaslanır. Obyektiv sorğu nəticəsində, Azərbaycanda iqtidarla xalq arasında böyük etimadın olduğu təsbit edilib. Belə bir etimad isə inkişafı, ictimai-siyasi və iqtisadi sabitliyi təmin edir.***



Ölkədə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsi və eyni zamanda, iqtidarın apardığı siyasətdir. 2015-ci ildən başlayaraq, neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Prezident İlham Əliyevin milli maraqlara söykənən siyasəti sayəsində Azərbaycanda heç bir sosial layihə dayandırılmayıb və əhalinin hökumətə etimadının daha da artması müşahidə olunmaqdadır. Qonşu dövlətlərdə, ələlxüsus, işğalçı rejimin hakimiyyəti altında olan Ermənistanda iflas tendensiyasının davam etdiyi, əhalinin acınacaqlı hala düşdüyü məqamda, hökumətə qarşı əhalinin sərt çıxışları olduğu halda, bütün qlobal layihələrin, sosial siyasətin və inkişafın fonunda Azərbaycan xalqının hakim partiyaya və ölkə rəhbərinə olan etimadı başadüşüləndir.

"Siyasətçilərə ictimai etimad" adlanan kateqoriya üzrə "Böyük İyirmilik" ölkələrinin hər 4-dən 3-nü geridə qoyan Azərbaycan, bu kateqoriyada bütün BRICS ölkələrini, postsovet respublikalarını və türk dövlətlərini qabaqlayır. "Qlobal Rəqabətlilik Hesabatında" Azərbaycan daha bir kateqoriya üzrə, yeni "Dövlət tənzimlənməsinin yükü" göstəricisinə görə dünyada 15-ci yerdə qərarlaşıb və bu da, o deməkdir ki, Azərbaycan dünyada dövlətə ən çox etimad göstərilən ölkələrin sırasındadır. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın 137 ölkə arasında 20-ci pilləyə yüksəlməsi Prezident İlham Əliyevin siyasətinə əhalinin və biznes mühitinin yüksək etimadının göstəricisi olmaqla yanaşı, həm də beynəlxalq ictimaiyyətin layiqli qiymətidir.

## Azərbaycanda sabitlik qorunub və möhkəmlənib

Göründüyü kimi, artıq dünya ictimaiyyəti belə ölkəmizdə gedən islahatlara, sosial layihələrə, sabitliyə, xalqın rifah halının yüksək olmasına biganə qala bilmir və müxtəlif hesabatlarda da, bu, öz əksini tapır. Baxmayaraq ki, beynəlxalq miqyasda Azərbaycan həqiqətləri təhrif edilir, uğurlara qısqanclıqla yanaşılır, xristian həmrəyliyi, erməni lobbiçiliyinin də mənfi təsiri danılmazdır, amma mütəmadi olaraq, ölkənin nüfuzu, inkişafı, demokratiyanın, dövlət siyasətinin uğurları etiraf edilir. Daha dəqiq desək, hesabatların sorğu ilə tərtib edildiyini nəzərə alsaq, deyə bilərik ki, bu hesabatlar tərtib edilərkən, birbaşa əhali və biznes nümayəndələri arasında aparılan sorğulara əsaslandırıldığı üçün tam reallığı əks etdirir və hesabatı tərtib edənlər bu reallığı etiraf etmək məcburiyyətindədir.

Adətən, böhran zamanı digər ölkələrdə ictimai-siyasi kataklizmlər olduğu halda, Azərbaycanda sabitlik həm qorunub, həm də möhkəmlənib. Məhz bu sabitliyin nəticəsidir ki, nəinki Azərbaycan xalqı, həm də xarici investorlar iqtidarın siyasətinə etimad göstərir və bu siyasəti dəstəkləyirlər. Ölkədə investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın düzgün strategiya üzərində qurulması investorların marağına səbəb olmaya bilməz və statistik göstəricilər sübut edir ki, ölkəmiz investisiya qoyuluşu üçün əlverişli hesab olunur. Təkcə 2017-2018-ci illərdə Azərbaycan iqtisadiyyatına 30 milyard ABŞ dolları sərmayə yatırılacağı gözlənilir ki, bu da ölkənin ümumi daxili məhsulunun 80 faizindən çoxunu təşkil edir.

## İctimaiyyətin dövlətə olan inamı, xalqla iqtidar birliyi günü-gündən möhkəmlənir

Ölkəmizə gələn turistlərin 2017-ci ildə 500 min nəfər artaraq, 2,7 milyon nəfərə çatması isə, öz növbəsində, Azərbaycanda sabitliyin ən parlaq təzahürüdür. Azərbaycanda turizmin dinamik inkişafı ölkədə təhlükəsizliyə olan etimadı təsdiq edən ən əsas amildir və xarici ölkə vətəndaşlarının ölkəmizdə olan sabitliyə inamını ifadə edir. Heç bir əcnəbi vətəndaş işğalçı və separatçı Ermənistanı səyahət və turizm məkanı kimi seçə bilməz və Azəbaycana turist axını, ölkənin turizm biznesinin inkişafı ölkə rəhbərliyinin uğurlu siyasətinin və strategiyasının məntiqi nəticəsidir.

Prezident İlham Əliyevin daim xalqla bir yerdə olması, xalqın maraqlarını ifadə etməsi, dövlət xidmətlərinin keyfiyyətinin daim artırılması, biznesə yaradılan münbit şərait, xarici siyasətdə uğurlar, ordu quruculuğu və düzgün kommunikasiya siyasəti xalqın dövlət institutlarına etimadını yüksəldir. Məhz buna görə də, geniş ictimaiyyətin dövlətə olan inamı, xalqla iqtidar birliyi günü-gündən möhkəmlənir və elə bu səbəbdən, hakimiyyət haqlı olaraq, ictimai dəstəyə arxalanır.

***İnam HACIYEV***

# Azərbaycanın ilk pambıqtəmizləmə zavodu xarici ölkələrə mahlıc ixracına başlayıb



Azərbaycanın ilk pambıq qəbulu və istehsalı məntəqəsi sayılan Dəliməmmədli pambıqtəmizləmə zavodunun fəaliyyəti bərpa olunub. "Goran Cotton" MMC-nin rəhbəri Rüfət Ruhi AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib ki, hazırda yenidənqurma işləri davam edən müəssisədə dünya bazarı üçün yüksəkkeyfiyyətli mahlıc istehsal edilir.

İlk dəfə 1905-ci ildə fəaliyyətə başlayan Dəliməmmədli pambıqtəmizləmə zavodu sovet dövründə ölkənin müxtəlif bölgələrindən, hətta Orta Asiyadan pambıq tədarük edib. Zavod hər il 40 min ton mahlıc istehsal edərək xarici ölkələrə satışını həyata keçirib. Ötən əsrin 90-cı illərindən Azərbaycanda pambıqçılığa marağın azalması zavodun 2008-ci ildə fəaliyyətini dayandırmasına səbəb oldu. Uzun müddət baxımsız qalan istehsal sahəsi 2017-ci ildən fəaliyyətini tədricən bərpa etməyə başlayıb. Bu məqsədlə zavodun sexləri yenidən qurulub, avadanlıqları təzələnib. Goranboy və ətraf rayonlardan olan 40 nəfər sakin isə burada özünə yeni iş yeri tapıb. Rüfət Ruhi qeyd edib ki, ötən il müəssisə 838 hektar ərazidə pambıq əkib. Sahələrdən 1000 ton pambıq tədarük olunub və mahlıc istehsal edilib. Müəssisənin istehsal etdiyi mahlıc çox təmiz olduğu üçün məhsul dünya bazarında da yüksək qiymətləndirilib. Belə ki, müəssisə tərəfindən İsveçrə, Türkiyə, Çin və Sinqapurla müqavilə bağlanıb və həmin ölkələrə mahlıc ixrac edilib.

Bu il isə 1500-2000 hektar ərazidə pambıq əkini həyata keçiriləcək. Tədarük olunacaq pambıqdan 300-400 ton mahlıc istehsal etmək və xarici bazara çıxarmaq planlaşdırılır. Həmçinin müəssisə pambıq istehsalı zamanı əldə olunan çiyidin çeşidlənməsini də aparıb. Hazırda 170 ton texniki və əkin üçün yararlı olan çiyid tədarük olunaraq qablaşdırılır. Cari mövsümdə 50 ton toxumluq çiyidin istehsal edildiyini deyən müəssisə rəhbəri qeyd edib ki, hazırda qablaşdırılan çiyidlər fermerlərə 1 kiloqramı 40 qəpikdən satılacaq. Bununla yanaşı, müəssisədə yerli fermerlərə malqaranın yemlənməsində istifadə olunan texniki çiyid də təklif ediləcək. "Goran Cotton" MMC-nin rəhbəri bildirib ki, müəssisə bu il fermerlərlə bağlanılan müqavilənin şərtlərini yerinə yetirmək üçün 25-ə yaxın müxtəlif təyinatlı texnikanı işlək vəziyyətə gətirib. Bundan başqa, bölgədə pambıqçılığı daha da inkişaf etdirmək məqsədilə fermerlərə güzəştli şərtlərlə toxum, gübrə və herbisitlər verilib.

# Naxçıvan Muxtar Respublikasında cinayətlərin açılması 100 faiz təmin olunub




Naxçıvan Muxtar Respublikasında cinayətlərin açılması yüz faiz təmin edilib. Ötən dövrdə muxtar respublikanın Daxili İşlər Nazirliyi tərəfindən cinayətkarlığa qarşı mübarizədə səmərəliliyin və ardıcıllığın təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, effektiv idarəetmə sisteminin formalaşdırılması və bütövlükdə fəaliyyətin qanunvericiliyin tələblərinə uyğun qurulması məqsədilə mühüm işlər görülüb.

AZƏRTAC xəbər verir ki, bu sözləri Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində 2017-ci ildə polis orqanlarının cinayətkarlığa qarşı mübarizəsi, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələri barədə keçirilən kollegiya iclasında Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-mayor Fazil Ələkbərov deyib. Fazil Ələkbərov bildirib ki, muxtar respublikanın daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və infrastrukturun yenilənməsi istiqamətində ardıcıl işlər görülüb. Nazirliyin inzibati binası əsaslı təmir edilərək yenilənib, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən 3 müxtəlif markalı minik avtomobili Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin xidməti istifadəsinə verilib. Bu gün kriminogen vəziyyətin tam nəzarətdə saxlanılması, əməliyyat şəraitində baş verən dəyişikliklərə qarşı çevik cavab tədbirlərinin görülməsi, xidməti vəzifələrin xalqın və dövlətin maraqlarına uyğun yerinə yetirilməsi hərtərəfli təmin olunub.

"Hesabat dövründə muxtar respublikada 24 cinayət faktı qeydə alınıb ki, bu da, 2016-cı illə müqayisədə 5 fakt azdır. Cinayətlərin açılması isə 100 faiz təşkil edib. Narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması sahəsində də qətiyyətli mübarizə aparılıb. Görülmüş tədbirlər nəticəsində 56,097 qram narkotik vasitə aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb", - deyən nazir diqqətə çatdırıb ki, hesabat dövründə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində hadisələrin qarşısının alınması məqsədilə texniki sistemlərin tətbiqinə geniş yer verilib, davamlı şəkildə profilaktik tədbirlər həyata keçirilib. Ötən illə müqayisədə qəzaların sayı 7 fakt azalıb. Həmçinin avtomobillərin texniki vəziyyətinə xüsusi fikir verilərək xeyli sayda nasaz avtomaşının istismarına qadağa qoyulub, aşkar edilən 23 min 174 yol hərəkəti əleyhinə olan inzibati xəta üzrə qanunauyğun tədbirlər görülüb. Müasir informasiya texnologiyalarının tətbiqi sahəsində bir sıra işlər görülərək yerli polis orqanlarının Elektron Sənəd Dövriyyəsinə qoşulması başa çatdırılıb. Həmçinin "Təhlükəsiz şəhər" sisteminin videomüşahidə vasitələri ilə əsasən inzibati hüquqpozmalarla əlaqəli 183 hadisə aşkar edilərək tədbir görülüb. Sonra məruzə ətrafında çıxışlar dinlənilib. İclasda xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə, ictimai asayişin mühafizəsi, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işində fərqləndiklərinə görə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 21 əməkdaşına təşəkkür elan olunub. Sonra Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 2018-ci il üçün əsas təşkilati tədbirlər planı müzakirə edilərək təsdiqlənib. Kollegiya iclasına daxili işlər naziri, general-mayor Fazil Ələkbərov yekun vuraraq, ötən il qeydə alınmış nöqsanları diqqətə çatdırıb və qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verib.

# Yeni layihələr turizmin inkişafına zəmin yaradır



***Ölkə iqtisadiyyatına ən böyük gəlir gətirən sahələrdən biri olan turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi və digər istiqamətlərdə dövlət tərəfindən məqsədyönlü işlər görülməkdədir. Davamlı olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında turizmin inkişafına xidmət edən kompleks tədbirlər həyata keçirilir.***

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində də turizmin daha da inkişaf etdirilməsi əksini tapıb. Məqsədyönlü səylər nəticəsində Bakı şəhəri qısamüddətli uçuş məsafəsində yerləşən və 90 milyondan artıq əhalinin yaşadığı 26 şəhəri əhatə edən potensial turizm tələbat qrupundan əhəmiyyətli dərəcədə bazar payı əldə edə biləcək. Bütün bunlarla yanaşı, 2025-ci ilə qədər Avropanın iri şəhərlərini əhatə edən birbaşa uçuşların sayı 49-dan 100-ə çatdırılacaq. Bütün görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycana gələn turistlərin sayında nəzərəçarpacaq dərəcədə artım müşahidə olunub. Dövlətin siyasəti və ünvanlı layihələr də nəticəsini verir. Viza rejiminin sadələşdirilməsi ölkəyə turist axınının artmasına təsirini göstərir. Bir il əvvəl fəaliyyətə başlayan "ASAN viza" vasitəsilə turistlər Azərbaycana maneəsiz gələ bilirlər. Bu sistem vasitəsilə Azərbaycana səfər edən ölkələrin siyahısı genişlənməkdədir. Körfəz ölkələri, eləcə də, Çin, Koreya Respublikası, Yaponiya, Malayziya, Sinqapur ilə də münasibətdə sadələşdirilmiş viza sisteminin tətbiqi mövcud turist axınına müsbət təsirini göstərib. Bu ölkələrin əksəriyyətindən Azərbaycan gələn müsəlman turistlərin sayında əsaslı artım qeydə alınıb. Fəaliyyətə başladığı ilk aylarda "ASAN viza" portalı vasitəsilə e-viza verilən ölkələrin sayı 81 idisə, bu gün isə 100-ə yaxın ölkəni əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Cənab Prezident turizmin inkişafı ilə bağlı bu il də əlavə tədbirlərin görüləcəyini bildirib: "2016-cı ildə xarici turistlərin gəlişi 24 faiz artmışdır, keçən il isə, əlavə daha 20 faiz artım olmuşdur və rekord səviyyəyə çatmışdır. Ölkəmizə 2,7 milyon xarici vətəndaş gəlmişdir. Bu, çox müsbət haldır. Bunun səbəbləri var, - əlbəttə, mən bu barədə dəfələrlə danışmışam, - həm sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələrimiz və turizm sahəsinə göstərilən dövlət dəstəyi və əminəm ki, eyni zamanda, beynəlxalq tədbirlər, beynəlxalq yarışlar turistləri ölkəmizə cəlb edir".

Təbii ki, ölkəmizdə təhlükəsizliyin, əmin-amanlığın hökm sürməsi, beynəlxalq tədbirlərin təşkili, qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışları və s. turistlərin ölkəmizə axınına səbəb olub. Qeyd edək ki, "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımladılar. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində dünyanın ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış oldu, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın, Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan 200-ə yaxın reportaj və materiallar hazırladılar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmadı. "Formula-1" yarışı ölkəmizin təbliği, eləcə də, turistlərin cəlb edilməsi baxımından, ideal imkanlar yaratmış oldu. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışların birində vurğuladığı kimi, "Formula-1" kimi bizim turizm potensialına dəstək verən ikinci beynəlxalq tədbir ola bilməz: "...ikinci belə beynəlxalq tədbir ancaq Yay Olimpiya Oyunları ola bilər. Amma Yay Olimpiya Oyunları bir dəfə keçirilir. Özü də o qədər böyük - milyardlarla vəsait tələb edir. Ancaq "Formula-1" hər il keçirilir. Artıq bütün infrastruktur var. Əlbəttə ki, turizmin inkişafı bundan sonra da sürətlə getməlidir".

### "BU GÜN QƏBƏLƏ BAKIDAN SONRA AZƏRBAYCANDA İKİNCİ TURİZM MƏRKƏZİDİR"

Dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır. Onu da, qeyd etməliyik ki, ölkədə yüzlərlə turizm şirkətinin fəaliyyəti, turizm marşrutlarının yaradılması, beşulduzlu otellərin istifadəyə verilməsi, peşəkar kadların hazırlanmasına diqqətin artırılması, eləcə də, ölkəmizin coğrafi mövqeyi Azərbaycanın turizm ölkəsi tək tanınmasında əsas amillər sırasındadır. Cənab İlham Əliyev çıxışında turizmin inkişafı üçün bir layihəni də dövlət investisiya proqramına salındığını bildirib: "Bu da Ləki-Qəbələ dəmir yolunun tikintisidir. Beləliklə, Qəbələ şəhərinə dəmir yolunun çəkilişi təmin ediləcək. Bu gün Qəbələ Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir. Əlbəttə ki, dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınını daha da sürətləndirəcək".

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması Azərbaycana səfər edən turistlərin sayının artmasına səbəb olub. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. Şahdağ Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Yaxın zamanda buraya dəmir yolunun çəkilişi nəzərdə tutulub. Cənab Prezident iclasda növbəti illərdə Şahdağ Xizək Kurortuna da dəmir yolunun çəkilişini təmin etməyin planda olduğunu bildirib: "Bu layihəni biz, əlbəttə ki, Bakı-Yalama dəmir yolu ilə uzlaşdırmalıyıq. Çünki Şahdağa dəmir yolu ilə getmək üçün gərək o, sürətli yol olsun. İndi Bakı-Yalama yolu o vəziyyətdə deyil ki, orada sürətli qatar işləyə bilsin. Bakı-Yalama yolu ilə Qusar rayonuna gedən dəmir yolu bir layihədə öz həllini tapacaq. Bu da bizim planlarımızda var".

Onu da, vurğulayaq ki, dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur. Azərbaycanın müsbət turizm imicinin yaradılması və turizm məkanı kimi tanıdılması istiqamətində aparılan məqsədyönlü tədbirlər ölkəyə gələn turistlərin sayının artımına öz töhfəsini verir.

***Z. BAYRAMOVA***



# 20 Yanvar hüzn və milli qürur günümüzdür

***Dünən Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. İlk olaraq, şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirdə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi sədrinin müavini Niyazi Rəhimov çıxış edərək, 1990-cı ilin 20 yanvar gününün Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu, bu tarixin dünyanın hər yerində Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizənin simvolu kimi qeyd olunduğunu bildirib: "M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, torpaqlarımıza iddia edən Ermənistanın siyasətinin dəstəklənməsinə, o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz olaraq, ayağa qalxmış xalqa qarşı Sovet ordusunun hərbi birləşmələrinin yeridilməsi Bakıda faciəyə gətirib çıxarmış, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələnmişdir. Ölkənin o dövrkü rəhbərlərinin cəsarətsizliyinin əksinə olaraq, həmin vaxt Moskvada yaşayan Ümummilli Lider Heydər Əliyev həyatını təhlükədə qoyaraq, oradakı nümayəndəliyimizə gələrək, 20 Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi. Məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra 20 yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi, cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı, 20 yanvar - Ümumxalq Hüzn Günü elan edildi".

Sədr müavini Prezident İlham Əliyev tərəfindən 20 Yanvar faciəsi zamanı həlak olmuş şəhidlərin ailələrinin, hadisələr zamanı sağlamlıqlarını itirərək əlil olmuş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və dövlət qayğısının artırılması məqsədilə əməli tədbirlər görüldüyünü, bununla bağlı ölkə rəhbəri tərəfindən onlarla Fərman və Sərəncamın verildiyini diqqətə çatdırıb.

Sonra komitədə çalışan şəhid ailəsi üzvlərindən bir neçəsi çıxış edərək, vətənin azadlığı və suverenliyi uğrunda canından keçmiş şəhidlərin qəhrəmanlıq yolundan danışıblar.

***ZÜMRÜD***

# "ABŞ-ı ikili standartlardan əl çəkməyə səsləyirik"



"ABŞ Dövlət Departamenti bu günlərdə Azərbaycanda terror təhlükəsinin mövcud olduğunu bildirib və ölkəmizə gələcək Amerika vətəndaşlarına ehtiyatlı olmaqla bağlı xəbərdarlıq edib. Təsadüfi deyil ki, eyni məzmunlu xəbərdarlıq Türkiyə ilə bağlı da edilib. Mən bunu qətiyyən təsadüfi hesab etmirəm. Düşünürəm ki, Azərbaycanla bağlı bu xəbərdarlıq son dönəmlər regionda və dünyada ABŞ-dan müstəqil, milli maraqları çərçivəsində sərbəst siyasət yürüdən Türkiyə ilə Azərbaycanın yaxınlığına görə ölkəmizə təzyiq niyyəti ilə edilib". SİA-nın verdiyi məlumata görə, bunu açıqlamasında "Ağ Blok"un təsisçilərindən olan tanınmış gənc siyasətçi Tural Abbaslı deyib.

Onun sözlərinə görə, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq isə bizim üçün strateji məsələ olaraq milli maraqlarımıza xidmət edir: "Dolayısı ilə ABŞ zənnimcə, Azərbaycana təzyiq edərək Türkiyəni Azərbaycansız qoymaq niyyətindədir. Ancaq, ABŞ artıq anlamalıdır ki, nə Türkiyə əvvəlki Türkiyədir, nə də Amerika əvvəlki deyil ki, istədiyi dövlətə istədiyi siyasəti sirişt etsin. Biz AĞ partiya olaraq ABŞ-ın Azərbaycana qarşı bu ədalətsiz və qərəzli mövqeyini qətiyyətlə pisləyir, özünü "demokratiyanın beşiyi" elan edən ölkəni ikili standartlardan əl çəkməyə səsləyirik.

Əgər Qarabağ münaqişəsini bəhanə gətirərək Azərbaycanı terror təhlükəsi olan dövlət elan edibsə o zaman bizdən daha acınacaqlı və qeyri-sabit olan münaqişənin digər tərəfi Ermənistanı kənarda saxlamaq bu xəbərdarlığın "obyektivliyini" açıq şəkildə göstərir. Siyasi məsələni bir kənara qoyaraq nəzərə alsaq ki, son dönəmlər ölkəmizə gələn turistlərin sayı nisbətən artıb və iqtisadiyyatımızın bu qeyri-neft sektoru yavaş-yavaş formalaşır, o zaman bu " xəbərdarlığın" iqtisadi baxımdan da nə qədər zərərli olduğu göz önündədir. İstənilən halda ABŞ-ın bu qeyri obyektiv xəbərdarlığı Azərbaycanın milli maraqlarına ziddir. Hesab edirəm ki, milli maraqlar məsələsində heç bir iqtidar, müxalifət anlayışından söhbət gedə bilməz və getməməlidir. Digər siyasi təşkilatları da bu qərara özlərinin siyasi mövqeyini ortaya qoymağa çağırıram. Unutmayaq ki, hamımızın Azərbaycan adında bir dövlətimiz var və onun maraqları hamımızın siyasi və şəxsi maraqlarımızdan öndə olmalıdır".

# Milli məfkurəmizin azadlıq istəyinin oyanış günü

## *20 Yanvar şəhidlərimiz və Şəhidlər Xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaq*

***Milli məfkurəmizin azadlıq istəyinin oyanış günü kimi xatırlanan 1990-cı il 20 Yanvar hadisələrindən 28 il ötür. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin 28-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.***




Sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarında 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulur. Ən əsası dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də, televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Ötən 28 ildə əsl həqiqət daha aydın şəkildə üzə çıxıb. Azərbaycanda demokratik proseslərə qəsd, dəqiq düşünülmüş hərbi təcavüz, respublikanın suveren hüquqlarını, ümumiyyətlə, insan hüquqlarını pozan hərəkət kimi dəyərləndirilən 20 Yanvar faciəsi uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.

1990-cı ilin 19-20 yanvar tarixlərində, əsasən, ermənilərdən ibarət Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi-dəniz donanmasının və daxili qoşunların bölmələri dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdi, günahsız insanlar qətlə yetirildi, yaralandı, əlil oldu, itkin düşdü. Sovet ordusu qoşunlarının hərbi əməliyyatları nəticəsində, Bakıda və rayonlarda 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən, təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Lakin dünya bu qətliama göz yumdu.

Əvvəldə də qeyd etdiyimiz kimi, 20 Yanvar faciəsini, nə qədər böyük ağrı hissi ilə xatırlasaq da, xalqımızın azadlıq uğrunda mübarizə əzmini sındırmağın mümkünsüzlüyünü göründə bundan böyük qürur hissi keçiririk. Həmin gün uzun illər imperiya əsarəti altında yaşayan xalqımız azadlığa qovuşmaq üçün canından belə keçməyə hazır olduğunu bir daha dünyaya nümayiş etdirdi. Azad, müstəqil yaşamaq, öz təbii sərvətlərinin əsl sahibinə çevrilmək Azərbaycan xalqının ən böyük arzusu olub.

Həmin vaxt Azərbaycan informasiya blokadasına alınmışdı. Dəhşətli faciədən bir az öncə, Azərbaycan Televiziyasının enerji bloku partladılmışdı. Dünya ictimaiyyəti Azərbaycanda baş vermiş bu qanlı hadisədən xəbərsiz idi. Belə ağır bir vaxtda Ulu Öndər Heydər Əliyev Moskvada xüsusi nəzarət altında saxlanılmasına, təzyiq və təqiblərə məruz qalmasına baxmayaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, Sovet ordusunun Bakıda törətdiyi bu qanlı cinayəti kəskin pisləyən bəyanat vermişdi. Ümummilli Lider Heydər Əliyev faciənin bütün günahkarlarının cəzalandırılmasını tələb etmişdi.

20 Yanvar hadisələrinə geniş mənada əsl hüquqi, siyasi qiymət verilməsi Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Dahi şəxsiyyət Heydər Əliyev 20 Yanvar faciəsinin səbəblərinin, günahkarlarının aşkarlanması üçün yaradılan komissiyanın işini bərpa etməklə əsl həqiqəti üzə çıxardı, xalqla birliyini bir daha təsdiqlədi. 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Ulu Öndər Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə, müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Ümummilli Lider şəhidlərin ailələrini də dövlət qayğısı ilə əhatə etdi. Eyni zamanda, 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlətin diqqətində olub. 1993-cü ildən bu günə kimi 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində, mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir.

Bir sözlə, Bakının ən hündür məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər Xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər Xiyabanı azadlığımızın, müstəqilliyimizin və milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaq.

***"Səs" Analitik Qrupu***

# Ölkədə qızılcaya yoluxma faktı qeyd olunmayıb

Hazırda Azərbaycanda qızılcaya yoluxan bir uşaq da yoxdur. Nəinki indi, 2008-ci ildən bəri ona yoluxma baş verməyib. Yalnız 2013-cü ildə xaricdən daxil olan yoluxma nəticəsində lokal bir dairədə qızılcaya yoluxma müşahidə edilmişdi və çox qısa vaxtda onun qarşısı alındı.



AZƏRTAC xəbər verir ki, bu barədə K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda jurnalistlər üçün keçirilən mətbuat konfransında məlumat verilib. Qeyd olunub ki, bunun əsas səbəbi ölkəmizdə aparılan peyvəndlə əlaqədardır. Səhiyyə Nazirliyinin baş pediatrı Nəsib Quliyev bu sahədə aparılan peyvəndlərin uşaqların 95-98 faizi əhatə etdiyini söyləyib. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva ölkəmizdə vaksinasiya tədbirləri barədə ətraflı məlumat verib, statistik rəqəmləri xatırladıb.

# YAP Samux rayon təşkilatının idarə heyətinin toplantısı keçirilib



Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatının idarə heyətinin yığıncağı keçirilib. Yığıncaqda rayon təşkilatının 2017-ci ildə gördüyü işlərə dair hesabatı dinlənilib və 2018-ci ilin I yarımilliyində görüləcək işlərə dair tədbirlər planı müzakirə olunub.

Yığıncağı giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov 2017-ci ilin rayon təşkilatı üçün uğurlu il olduğunu vurğulayaraq, qeyd edib ki, rayon təşkilatı 2017-ci ilin I və II yarımilliyi üçün hazırlanmış iş planına müvafiq qaydada fəaliyyətini qurub. "Təşkilatın fəaliyyətində əsas istiqamətlər ölkəmizin sosial, siyasi, mədəni və iqtisadi sahələrdə əldə etdiyi böyük nailiyyətləri, həmçinin, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasət xəttinin ictimaiyyət arasında geniş izahı və təbliğ edilməsi, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar nəzərdə tutulmuş tədbirlərin hazırlanması və həyata keçirilməsi, təşkilatın VII konfransına hazırlıq işlərinin aparılması və uğurla başa çatdırılması, partiyanın Proqram prinsiplərinin izahı və təbliği, YAP sıralarının kəmiyyət və keyfiyyətcə yaxşılaşdırılması, təşkilatın ərazi ilk partiya təşkilatları ilə əlaqələrinin daha da genişləndirilməsi və digər cari işlərin yerinə yetirilməsi olmuşdur"-deyə qeyd edən rayon təşkilatının sədri, həmçinin, bildirib ki, bu istiqamətdə fəaliyyətlər davam etdirilir və qarşıda dayanan bütün vəzifələr uğurla həyata keçirilməkdədir.

Sonra yığıncaqda YAP Samux rayon təşkilatının gənclər birliyinin sədri Arif Ağayev çıxış edərək, təşkilatın sosial şəbəkələrdəki fəaliyyətindən danışıb. O, qeyd edib ki, bu gün insanların həyatında getdikcə daha mühüm rol oynamağa başlayan sosial şəbəkələr ictimai rəyin formalaşmasında, informasiya tələbatının ödənilməsində mühüm əhəmiyyətə malikdir.

Yığıncaqda idarə heyətinin üzvləri çıxışlar edərək, tədbirlər planına öz rəy və təkliflərini əlavə ediblər. Müzakirə və təklifləri nəzərə alaraq yığıncaq YAP Samux rayon təşkilatının 2017-ci ildəki fəaliyyətini qənaətbəxş qiymətləndirərək, 2018-ci ilin I rübündə görüləcək işlər haqqında tədbirlər planını təsdiq edib.

***Rövşən RƏSULOV***

# "700 min ağac əkək" kampaniyası çərçivəsində Ağdamda 6500 ədəd ağac əkiləcək

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar "700 min ağac əkək" kampaniyası çərçivəsində YAP Ağdam rayon təşkilatı yanvarın 13-də ağacəkmə aksiyasını davam etdirib.



Aksiyada YAP Ağdam rayon təşkilatının şura üzvləri, qadınlar şurası, gənclər birliyinin fəalları, ilk partiya təşkilat sədrləri və YAP üzvləri iştirak ediblər. Rayonun Bayraq Meydanı ərazisində və Soltanbud meşəsində 950 ədəd ağac əkilmişdir. Ümumilikdə aksiya müddətində 6500 ədəd ağacın əkilməsi nəzərdə tutulmuşdur.

***ZÜMRÜD***

# AXCP və Müsavat rəhbərliyi “Xalq Cümhuriyyəti İli”nə dəstək vermədilər

*Əli Kərimli və Arif Hacılı kimi milli satqınlardan fərqli olaraq, digər müxalifət partiyaları dövlət başçısının tarixi Sərəncamını alqışlayırlar*

***Azərbaycan Prezidenti Cənab İlham Əliyevin 2018-ci ili “Xalq Cümhuriyyəti İli” elan etməsi və tarixi hadisənin 100 illiyinin dövlət səviyyəsində keçirilməsi barədə verdiyi Sərəncamı ölkəmizdə fəaliyyət göstərən bir sıra müxalifət partiyaları tərəfindən alqışla qarşılanıb və bu addım yüksək şəkildə qiymətləndirilib. Həmçinin müxalifət partiyaları bununla bağlı keçiriləcək tədbirlərə dəvət olunacaqları halda, qatılacaqlarını da qeyd ediblər.***

MÜSAVAT

### AXCP sədri Əli Kərimli dövlətin bu istiqamətdə atdığı çox mühüm bir addımı ətrafında siyasi dələduzluqla məşğul olur

Lakin hər zamankı kimi, uzun illərdir ki, bir-biriləri ilə “ana müxalifətçilik” uğrunda didişən iki partiyanın - AXCP və Müsavatın bu məsələdə də dövlət və xalqın maraqları əleyhinə çıxmaları, gözlənildiyi kimi, baş verdi. Belə ki, özlərini tarixi “AXC-nin varisləri” olaraq, zorla ictimai rəyə sırımağa cəhd edən Əli Kərimli və Arif Hacılı kimi milli satqınlar bu tipli qısqanc və qeyri-sivil addımları ilə istər AXC, istərsə də, onun qurucusu Məhəmməd Əmin Rəsulzadənin adından yalnız öz şəxsi səmərələri, dividendləri üçün istifadə etdiklərini göstərmiş oldular. Əks halda, bu “liderlər” də digər müxalifətdəkilər kimi ölkə rəhbərinin bu addımına dəstək göstərərdilər.

Misal üçün, bir tərəfdən “AXC-nin 100 illiyi xalqımız, millətimiz üçün çox önəmlidir”-deyə pafoslu, hətta yekəxana tipli çıxış edən Əli Kərimli, digər tərəfdən, dövlətin bu istiqamətdə atdığı çox mühüm bir addımı ətrafında siyasi dələduzluqla məşğul olur.

### Müsavat başqanı Arif Hacılı isə özünü anlamsızlığa vurur....

Müsavat başqanı da əzəli düşmənindən geri qalmır və “AXC-nin 100 illiyi Azərbaycan tarixinin çox böyük hadisəsidir”-deyərək, digər tərəfdən, hakimiyyətin qiymətləndirdiyi və Azərbaycanın tarixində əsas yerlərdən birini tutan bu hadisəni öz “siyasətinə” yazmağa cəhd edir. Diqqət yetirsək, görərik ki, A.Hacılı Sərəncamda AXC-nin qurucularının adlarının çəkilmədiyini iddia edir, ancaq digər tərəfdən, özünü anlamsızlığa vuraraq, bilmir ki, tarixi dövlətin quruluşunun yubileyinin keçirilməsinin özü, bilavasitə onun qurulmasında iştirak edənləri də əhatə edir. O cümlədən, həmin şəxslərin adlarının ayrı-ayrılıqda yazılmasına da ehtiyac duyulmur. Təəssüf ki, ucuz təfəkkürləri dəyişilməmiş qalan Ə.Kərimli və A.Hacılı kimi siyasətbazlar hələ də öz rüsvayçı baxışlarını dəyişməmiş qalıblar.

### ADP sədri Sərdar Cəlaloğlu AXC-nin 100 illiyi ilə bağlı verilən Sərəncamı yüksək qiymətləndirir

ADP sədri Sərdar Cəlaloğlu mətbuata açıqlamasında bildirib ki, hakimiyyətin 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etməsini müsbət addım kimi qiymətləndirmək olar. “Bu qərarla iqtidar Azərbaycan Xalq Cümhuriyyətinin əhəmiyyətini dəyərləndirib. İl elan olunubsa, respublika quruluşu, konstitusiya və qanunlar barədə tədbirlər keçirmək lazımdır. Dövlətçiliyin möhkəmləndirilməsi, xalqın siyasi şüurunun artırılması, xalqın dövlət ətrafında birləşməsinin yeganə yolu bu cür siyasi tədbirlərin ən yüksək səviyyədə keçirilməsidir. Cümhuriyyətin 100 illiyini elə səviyyədə keçirmək lazımdır ki, insanlar respublika quruluşunun nə olduğunu və onlara nə verdiyini başa düşsün. Bu il bizim üçün çox önəmlidir. 2018-ci ildə üzərimizə düşən vəzifələri lazımınca yerinə yetirməyi bacarmalıyıq”.

### BQP sədri Fazil Mustafa: “Prezidentin Cümhuriyyət tarixinə bu cür həssas yanaşması hamıya dərs olmalıdır”

Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa da Prezident İlham Əliyevin verdiyi qərarı müsbət və əhəmiyyətli qərar olaraq qiymətləndirib: “Hesab edirəm ki, 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi gözlənilən bir addımdır. Çünki Prezident Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin keçirilməsi ilə bağlı Sərəncam vermişdir”.

BQP sədri həmçinin qeyd edib ki, Cənab İlham Əliyev bu qərarı ilə Cümhuriyyətin yubileyinə ciddi hazırlıq görülməli olduğunu bəyan edib: “Mən bu qərarı yüksək qiymətləndirirəm. Prezidentin Cümhuriyyət tarixinə bu cür həssas yanaşması hamıya dərs olmalıdır”.

### KXCP sədri Mirmahmud Mirəlioğlu: “Hakimiyyətin verdiyi qərarı müsbət qarşılayırıq və təqdir edirik”

Klassik Xalq Cəbhəsi Pariyasının lideri Mirmahmud Mirəlioğlu da Prezident İlham Əliyevin verdiyi qərara münasibət bildirərək, qərarı müsbət qiymətləndirdiyini deyib: “Hakimiyyətin verdiyi qərarı müsbət qarşılayırıq və təqdir edirik. Çox müsbət addımdır. Amma elə etmək lazımdır ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin adına layiq olsun”.

Beləliklə, fakt budur ki, bu məsələdə də hansı müxalifətin sivil olması ilə yanaşı, həm də normal siyasi təşkilat olduğu öz təsdiqini tapdı. Ən azından, normal müxalifət partiyalarının da məqsədləri dövlətçilik maraqlarından çıxış etmək və dövlətin tarixinə hörmət göstərməkdir. Ancaq AXCP və Müsavat kimi qondarma müxalifət partiyalarının mövzu ilə bağlı sərgilədikləri münasibətlər, artıq sübut edir ki, siyasi dələduzlar yığnağını heç vaxt nə bu dövlətin tarixi, nə də gələcəyi maraqlandırmayıb.

**R.RƏSULOV**

# Ermənistanda qiyam reallığı

*Xalq üsyana hazırlaşır*



***Ermənistanda bütün məhsulların qiymət artımı yoxsul və səfalət içində yaşayan xalqı hövsələdən çıxarıb. Səbri tükənən xalq artıq küçələrə axışmağa hazır olduğunu müxtəlif vasitələrlə sərgiləməkdədir. Həmçinin, Ermənistanın müxalifət cinahı bu və ya digər şəkildə hakimiyyətlə qarşıdurmalara hazırlaşmaqdadır. Bunu aşağıdakı faktlar da deyir...***

“Qazın qiyməti 17 dram artıb, ancaq qazdoldurma məntəqələrində onu 20-30 dram baha qiymətə satırlar, bu isə, növbəti dəfə belə qənaətə gəlməyə səbəb olur ki, sahibkar subyektləri qazı baha qiymətlə almaqla yanaşı, daha baha qiymətə satırlar, halbuki bu qədər baha satmaya da bilərlər. Ümumilikdə, deyə bilərik ki, bütün bunların qarşısının alınması istiqamətində dövlət heç bir addım atmır”.



“1in.am” saytına Ermənistanın İnformasiyalı və müdafiə olunan istehlakçı” QHT-nin sədri Babken Pipoyan son günlər ölkəsində qaz və benzinin, eləcə də, dizel yanacağının qiymətinin bir neçə dəfə artmasına münasibətini açıqlayarkən deyib ki, vəziyyət kritik həddə qədər inkişaf edib. Jurnalistin qiymət artımı sayəsində sərnişin nəqliyyatının və taksilərin də qiymətlərinin artması ehtimalının nə qədər yüksək olması barədə sualını cavablandıran QHT sədrinin dediyinə görə, əgər bu, baş verərsə, onlar özləri-özlərinin bizneslərini öldürə” bilərlər. Bu baxımdan, nəqliyyat məcburi şəkildə köhnə qiymətlərdə qalmalı olacaq. Belə ki, əks halda insanlar onlardan istifadə etməyəcəklər. Taksi sürücüləri və sərnişin daşıyan nəqliyyatlar bunu yaxşı başa düşürlər”-B.Pipoyan bildirib. Lakin erməni QHT sədri cari ildə, istər-istəməz, bu sahədə qiymətlərin tədricən qalxacağını da istisna etməyib. Pipoyan ölkədə sosial qiyamın yetişdiyini və hakimiyyətin buna etinasız yanaşdığını deyərək, vəziyyətin heç də yaxşıya doğru getmədiyini vurğulayıb.





### Analitik Musa Mikaelyan hesab edir ki, hətta qiymətlər artmasaydı və aşağı olsaydı, ölkədə problemlər qalmaqda davam edəcəkdi

Adıçəkilən saytın siyasi şərhçisi Musa Mikaelyan isə, sözügedən mövzuda yazdığı analitikasında bildirir ki, ilin əvvəlindən artmağa başlayan və davamlı tendensiya ilə müşahidə olunan qiymətlər ictimai-siyasi baxışı iqtisadi problemlərə doğru yönəldib. “Bu mövzuya, nəinki müxalifət, o cümlədən, hakimiyyət də müraciət edir. “Yelk” bloku yürüşə hazırlaşır, hakimiyyət isə qiymətlərin artması baxımından, yumşaldıcı addımlar atacağını deyir”-deyə qeyd edən analitik əlavə edib ki, müxalifətin etiraz aksiyalarına başlamasını alqışlamaq olar, ancaq hakimiyyətin də yümşaldıcı addımlara getməsini də nəzərə alarsaq, indidən hansının qələbə qazanacağını proqnozlaşdırmaq mümkün deyil.

Analitik hesab edir ki, hətta qiymətlər artmasaydı və aşağı olsaydı, ölkədə problemlər qalmaqda davam edəcəkdi. Belə ki, Ermənistan hakimiyyətinin iqtisadi siyasəti başdan-ayağa qədər uğursuzluqlarla əhatə olunub. O cümlədən, hakimiyyət yumşaldıcı manevrlər etsə belə, bu, sadəcə, vaxt udmağa hesablanmış addım olaraq qiymətləndirilə bilər.

### “Talana yox” hərəkatının fəalı Artuş Çibuxçanyan: Purjin kifayət qədər sıxılıb və açıla bilər, bu baxımdan, onun üzərindən basanlar üçün çox pis olacaq”

Bu arada “Talana yox” hərəkatının fəalı Artuş Çibuxçyan ölkədə növbəti qiyamın baş qaldırması ehtimalı ətrafında “1in.am”-a verdiyi açıqlamasında deyib ki, əgər insanların bu dəfə də ayağa qalxmayacağını düşünənlər varsa, bu fikir başdan-ayağa doğru deyil. Çünki hakimiyyət, davamlı olaraq, narazı xalqı dalana sıxışdıra bilməz. “Purjin kifayət qədər sıxılıb və açıla bilər, bu baxımdan, onun üzərindən basanlar üçün çox pis olacaq”-deyə hakimiyyətlə təhdid dilində danışmağın tərəfdarı olduğunu deyən müxalifətçi fəal, onu da bildirib ki, sosial narazılar kütləsi üzərində qurulmuş hərəkat hakimiyyət üçün daha təhlükəli ola bilər: “Bu hərəkat istənilən vaxt formalaşdırıla bilər, çünki bizim ölkədə vətəndaş cəmiyyəti kifayət qədər uzun yol qət edib və göstərib ki, əgər bütün siyasi güclər öz qüvvələrini təkidiblərsə, hər an, lazımi vaxtlarda özünütəşkil səviyyəsində öndə tuta bilər”.

Beləliklə, vəziyyətin kritik həddə çatması Ermənistanın həqiqətlərini daha da üzə çıxarır. Bu isə, qiyamın baş qaldırması faktını tam şəkildə sübuta yetirmiş olur. Hətta belə hesab etmək mümkündür ki, artıq qiyama start verilib, sadəcə, qalır insanların küçələrə axışaraq, hakimiyyətə qarşı sərt mövqeyini ortaya qoymasına ki, bu proses özü-özlüyündə inkişaf mərhələsinin son pilləsindədir.

**Rövşən NURƏDDİNOĞLU**

TƏRS BAXIŞ

# Əli Kərimlinin yeni hədəfi Sərdar Cəlaloğludur?

## *Qarşıdan gələn prezident seçkiləri sözdə müxalifətçiləri bir-birilərinə qarşı aqressivləşdirib*

***Müxalifətin dağıdıcı qanadında təmsil olunan partiyalar arasında gərginlik tam sürəti ilə davam edir. Belə ki, get-gedə daha da kəskinləşən vəziyyət əzəli düşmən olan Müsavat və AXCP üçün onsuz da həlli mümkün olmayan problemləri daha da çıxılmaz hala salır. Özünü çıxılmaz hala salmaqda isə Əli Kərimli qatı rəqibi Arif Hacılını üstələyə bilib. Misal üçün, artıq Müsavatın bostanına daş atmaqdan yorulan AXCP sədri bu dəfə özünə yeni hədəf seçib. Bu dəfə isə, nədənsə hədəf Sərdar Cəlaloğlunun sədri olduğu ADP-dir...***



### AXCP sədrinə "Hollivudun uğursuz artisti mükafatı"nı kim verdi?

Son vaxtlar AXCP sədri Ə.Kərimlinin sosial şəbəkələrdə açdırdığı saxta profillər və həmin profilləri idarə edən muzdlu gənclər ADP sədrini ittiham edərək, onu tənqid və təhqir obyektinə çevirərək, məsxərəyə qoymaqdadırlar. Daha doğrusu, Ə.Kərimlinin, hətta hər hansı bir ailədə baş verən məişət olaylarına da siyasi don geyindirmək cəhdləri artıq onun nə qədər cılız bir siyasətbaz olduğunu tam çılpaqlığı ilə sübuta yetirməkdədir. Məhz bu amili önə çəkən ADP-çilər, bütün mənalarda, AXCP sədrini "düşük", "səviyyəsiz", habelə "Hollivudun uğursuz artisti" adlandırırlar.

### Həsrət Rüstəmov "cəbhəçiləri" "ağ yuyub qara sərdi" və "küçə uşağı" adlandırdı

Təbii ki, Ə.Kərimli dərhal saxta profilləri vasitəsi ilə yaratdığı söyüş qrupunu, bilavasitə S.Cəlaloğlunun üzərinə tərəf qısqırdıb. Nəticədə, Ə.Kərimlinin "söyüş qrupu" tərəfindən yazılanlara dözə bilməyən S.Cəlaloğlunun müavini Həsrət Rüstəmov "cəbhəçi"lərə yazdığı cavabda onları "küçə uşağı", "nadan", və "qanmaz" adlandırıb: "Söyüşdən başqa əlindən bir iş gəlməyən tərbiyəsiz, nadan, başıboş Facebook "qəhrəmanları"na deyirəm ki, söyüş söymək, həm də, bunu şəxsiyyətini təhqir etmək istədiyiniz adamın xəbəri olmadan, eşidib görmədiyi bir yerdə etmək, nəinki qəhrəmanlıq deyil, hətta insanlıqdan uzaq bir şeydir. Bizim kənddə yalnız qanmaz uşaqlar, onları hansısa ciddi səbəbdən, şilləyə qonaq edən böyüklər gedəndən sonra, öz yaşıdları arasında şeşələnmək üçün söyərdilər".

### ADP yetkilisi: "Əməllərinin heç də kişiyə yaraşmadığını qansınlar"

H.Rüstəmov ilkin cavabından sonra bildirib ki, bu günlərdə S.Cəlaloğlunu çox pis şəkildə təhqir edən "cəbhəçi" qrup fəaliyyət göstərir. O, həmçinin bildirib ki, sözügedən qrup, əsasən, KXCP sədri Mirmahmud Mirəlioğlunu, ADP sədri Sərdar Cəlaloğlunu, "Ümid" sədri İqbal Ağazadəni, "Azadlıq" partiyasının sədri Əhməd Orucu və digər partiya sədrlərini hədəfə alır. ADP sədrinin müavini qeyd edib ki, söyüşçülərin bir neçəsinin profilinə baxıb: "Onlar "uşaq" olsalar da, yaşları kifayət qədərdir. Əməllərinin heç də kişiyə yaraşmadığını qansınlar. Mənim onlara bir sözüm var: əgər siyasəti və qəzetçiliyi peşə seçmisinizsə, bir kənara boylanın, görün, dünyada bu işləri necə görürlər?! Yox, küçə uşağı kimi söyüş söyəcəksinizsə, bunun üçün sosial şəbəkəyə ehtiyac yoxdur, bir zibilliyə çəkilin və ürəyiniz istədiyi qədər kimi istəyirsiniz söyün".

Sözsüz ki, qarşı tərəfin bu yazılanlara cavabı çox gecikməyəcək. Bu isə, o deməkdir ki, bu il baş tutacağı gözlənilən prezident seçkiləri ərəfəsində, müxalifətdə ciddi qarşıdurmalar səngiməyəcək, əksinə, artacaq. Seçkilərə, elə də çox vaxtın qalmadığı bir ərəfədə, özlərini müxalifət adlandıran tərəflərin bu cür ucuz addımları isə, söz yox ki, onları xalqdan daha çox təcrid etməkdədir. Belə olan vəziyyətdə, sözdə müxalifətin seçkilərə qatılaraq, ölkənin, xalqın adından danışmaq limitlərinin də tükəndiyini əminliklə deyə bilərik...

**Rövşən NURƏDDİNOĞLU**

# "Milli Şura" ancaq AXCP-dən ibarətdir"

## Mütəllim Rəhimli: *"Namizədlik uğrunda Əli Kərimli ilə Cəmil Həsənli arasında savaş qızışacaq"*



Müsahibimiz "Ədalət" partiyasının aparat rəhbəri Mütəllim Rəhimlidir

***- Mütəllim bəy, xaricə səfər edən dağıdıcı müxalif ünsürləri orada Azərbaycan əleyhinə anti-təbliğat kampaniyası aparırlar. Sizcə, bu kimi şəxslərin ölkəmizə qarşı düşmən kəsilməsi nədən qaynaqlanır?***

- Əgər hər hansı bir ölkə daxilində iqtidarla müxalifət arasında, nə isə bir problem varsa, bu, elə ölkə sərhədləri daxilində də qalmalıdır. Müxalifətin bunu beynəlxalq səviyyəyə çıxarması nə onu çıxaran qüvvəyə, nə də ki, ölkə daxilində tərəfə başucalığı gətirmir. Burada daha çox uduzan və hörmətdən düşən tərəf də, məhz onu beynəlxalq aləmə çıxaran tərəf olur. İndiki halda, əgər müxalifət düşərgəsindən kimlərsə ölkə daxilində olan hər hansı bir problemi beynəlxalq aləmə çıxarırsa, bu, onun haqqında mənfi təəssüratın yaranmasına gətirib çıxarır. Şübhəsiz ki, hər bir ölkənin öz problemi var. Ancaq bu problemləri qlobal problem kimi önə çəkib, hay-küy salmaq yersizdir və qınağa layiqdir.

***- "Gələcək Azərbaycan Partiyası"nın lideri R.Quliyev indiki müxalifəti yararsız və cəmiyyət tərəfindən qəbul olunmayan tör-töküntü adlandırır. Bəs özü nədir?***

- R.Quliyev, faktiki olaraq, hələ Azərbaycana gələ bilmir, nəinki burada mübarizə aparmaq və tərəfdar toplamaq işini görür. Kənarda oturub, kimi isə ittiham etmək düzgün deyil. İlk öncə, R.Quliyev siyasi partiya rəhbərlərini tənqid etməmişdən öncə, özündə cürət tapıb, Azərbaycana gəlməlidir. Faktiki olaraq, R.Quliyev Azərbaycan sərhədlərinə daxil ola bilmir. Bu baxımdan, R.Quliyevin, rahat və təhlükəsiz bir yerdə oturub danışması heç bir halda, düzgün hərəkət deyil. R.Quliyevin bu cür sözləri ciddi məna daşımır. O vaxt onun dedikləri ciddiyə alınardı ki, o, Azərbaycana gələrdi.

***- Hər zaman müxalifət liderləri arasında konfliktlər olub və bu gün də var. Bu baxımdan, demək olar ki, 2018-ci ildə keçiriləcək prezident seçkilərində müxalifət yenə də, ortaq məxrəcə gələ bilməyəcək?***

- Eyni platformanı bölüşdüyünü iddia edən müxalifət düşərgəsi bir yerdə deyil. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslər daimi olaraq, qarşılıqlı konfliktlərdədir. Yəni müxalifətdə olan liderlər bir-birilərini qəbul etmirlər və istəmirlər ki, müxalifət daxilində kim isə onlardan üstün olsun. Belə olan halda da, müxalifətçilər hər hansı bir məsələ ilə bağlı ortaq məxrəcə gələ bilmirlər. Müxalifət daxilində qarşılıqlı ittihamların davam etdiyi belə bir vaxtda, görünən budur ki, bu il keçiriləcək prezident seçkilərində müxalifət düşərgəsi seçkilərə "vahid namizəd"lə qatıla bilməyəcəkdir. Çünki indidən müxalifətdə olan bir çox iddialıların adı səslənir və bu iddialılar isə, biri digərinə güzəştə getmək fikrində deyil. İndiyə qədər müxalifət düşərgəsində təmsil olunan liderlərin nəyi bölüşə bilmədikləri sualı aydınlaşdırılmamış qalır. Ətrafında olan əqidə dostları arasında barışmaz konflikt yoxdur. Müşahidə olunan hal odur ki, bu konflikt yalnız liderlərin arasındadır.

***- "Milli Şura"da C.Həsənli və Ə.Kərimli arasında gedən "vahid namizəd" uğrunda savaş, nəticə etibarı ilə, "Milli Şura"nın dağılmasına gətirib çıxara biləcəkmi?***

- Əslində, "Milli Şura" Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP-nin çiyinlərində dayanır. "Milli Şura" ancaq AXCP-dən ibarətdir, orada fərqli qüvvələr yoxdur. Ötən müddətdə C.Həsənlinin prezidentliyə namizəd olması ilə Ə.Kərimli də gündəmdə qalırdı. Bu dəfə Ə.Kərimli namizəd olmağa çalışacaq. Bu baxımdan, düşünürəm ki, prezidentliyə namizədlik uğrunda Ə.Kərimli ilə C.Həsənli arasında savaş qızışacaq. Baxmayaraq ki, adları çəkilən şəxslər bu il keçiriləcək prezident seçkilərindən qalib ola bilməyəcəklərini çox gözəl dərk edirlər.

**GÜLYANƏ**

### Ermənistanda seçkilər bu tarixdə keçiriləcək



Ermənistanda prezident seçkiləri çox güman ki, martın 2-də baş tutacaq. SİA-nın erməni mətbuatına istinadən verdiyi məlumata görə, bu barədə Ermənistanın hakim respublikaçılar partiyasının parlament fraksiyasının rəhbəri Vaqram Baqdasaryan açıqlama verib. Onun sözlərinə görə, fraksiya prezident postu üçün mümkün namizədlə bağlı qərara gəlməyib.

### Azərbaycanda narkotrafiklə bağlı 78 cinayətkar qrup zərərsizləşdirilib

Ötən il Azərbaycanda narkotrafiklə bağlı 78 cinayətkar qrup zərərsizləşdirilib. SİA-nın məlumatına görə, bunu daxili işlər naziri, general-polkovnik Ramil Usubov Daxili İşlər Nazirliyinin geniş Kollegiya iclasında deyib. Nazir qeyd edib ki, transmilli mütəşəkkil cinayətlərdən olan narkotrafikə qarşı həyata keçirilən tədbirlərlə qanunsuz dövriyyədən 944,5 kiloqram narkotik vasitə çıxarılıb, 78 cinayətkar qrup zərərsizləşdirilib: "Qanunsuz olaraq, kultivasiya edilən və yabanı halda bitən 175 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib".

### Qaçaqmalçılıq yolu ilə siqaretlərin ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb

Qaçaqmalçılıq yolu ilə siqaretlərin ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında, "Sınıq Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi minik avtomobilinə gömrük nəzarəti həyata keçirilib. Baxış zamanı, həmin nəqliyyat vasitəsində gömrük nəzarətinə əvvəlcədən bəyan edilməyən 2000 ədəd "Marlboro" markalı siqaret aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

### Türkiyədə yenə əməliyyat - Bir tondan çox narkotik aşkarlandı



Türkiyənin şərqindəki Diyarbəkir vilayətində keçirilən xüsusi əməliyyat nəticəsində bir tondan çox narkotik vasitə müsadirə olunub. Trend-in məlumatına görə, bu barədə vilayət polisinin bəyanatında deyilir. Əməliyyat çərçivəsində saxlananların da olduğu barədə məlumat verilib. Qeyd edək ki, 2017-ci il ərzində Türkiyədə 20 min ton narkotik müsadirə olunmuşdu. Ötən il ölkədə 1020 nəfər narkotikdən ölüb.

# Azərbaycanda demokratik cəmiyyətin formalaşdırılmasının ilkin şərtləri

***Müvəkkilin dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən zəruri məlumat, sənəd və materialları 10 gün müddətində almaq, cinayət, mülki və inzibati işlərə dair qanuni qüvvəyə minmiş qərarlarla, həmçinin, cinayət işlərinin başlanmasının rədd edilməsi barədə materiallarla tanış olmaq, şikayətin araşdırılması zamanı vəzifəli şəxslərdən yazılı arayışlar almaq, şikayətdə əks etdirilmiş halların yoxlanılması üçün müvafiq orqanlara, qərarından və hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən orqanlar və ya vəzifəli şəxslər istisna olmaqla, tapşırıq vermək, müvafiq dövlət orqanlarına və təşkilatlarına ekspert rəyinin hazırlanmasını tapşırmaq, dövlət və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, cəzaçəkmə müəssisələrinin, istintaq təcridxanalarının və müvəqqəti saxlanılma yerlərinin rəhbərliyi tərəfindən təxirəsalınmadan qəbul edilmək kimi səlahiyyətləri də vardır.***

Bakı şəhərində, habelə respublikanın müxtəlif şəhər və rayonlarında əhali ilə geniş ünsiyyət yaratmaqla görüşlər və qəbullar keçirilir, əhali qrupları ilə canlı ünsiyyət yaradılır, zəruri izahat işi aparılır, hüquqi məsləhətlər verilir, insanları narahat edən problem və çətinliklər müəyyən edilir, mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə, bələdiyyələrlə əməkdaşlıqda müvafiq tədbirlər görülür. İnsan hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda, Müvəkkil öz təşəbbüsü ilə araşdırma apara bilər. Araşdırma zamanı şikayətdə qeyd olunmayan digər hallar aşkar edilərsə, araşdırma Müvəkkilin səlahiyyətlərinə aid olduqda, onun tərəfindən aparılır, onun səlahiyyətlərinə aid olmadıqda isə, materiallar digər səlahiyyətli dövlət orqanlarına göndərilir. Azərbaycanda hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz Həyatdan məhrumetmə, güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda, bu maddənin pozulması kimi nəzərdən keçirilmir. a) İstənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün; b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün; c) qanuna müvafiq olaraq, çevriliş və ya qiyamın yatırılması üçün. Ölüm hökmü ləğv olunur. Heç kim belə cəzaya məhkum edilə və ya belə cəzalandırıla bilməz. Dövlət müharibə dövründə və ya qaçılmaz müharibə təhdidi zamanı törədilmiş əməllərə görə öz qanunvericiliyində ölüm cəzasını nəzərdə tuta bilər: bu cür cəza yalnız qanunla müəyyən olunmuş tələblərə və onun müddəalarına müvafiq olaraq tətbiq edilə bilər. Azərbaycan Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinə əsasən, hər kəsin yaşamaq hüququ vardır. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən, ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır. Müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı, xüsusilə, ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilmə halları istisna olmaqla, insana qarşı silah işlədilməsinə yol verilmir. Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar "Azərbaycan Respublikası Cinayət, Cinayət Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 1998-ci il 10 fevral tarixli Qanunu qəbul edilmişdir. Qanuna əsasən, ölüm cəzası cəza sistemindən çıxarılmış və ömürlük azadlıqdan məhrumetmə cəza növü ilə əvəz olunmuşdur. Ömürlük azadlıqdan məhrumetmə əsas cəza növü kimi Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilərək, 1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 42-ci maddəsində nəzərdə tutulan cəzanın sisteminə daxil edilmişdir. 24 dekabr 2002-ci il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 2-ci maddəsində məhdudlaşdırılması qadağan olunan insan hüquqlarının siyahısı təsbit olunmuşdur. 9 Kontitusiya Qanununun 2-ci maddəsində məhdudlaşdırılması qadağan olunan insan hüquqları siyahısına digər hüquqlarla bərabər Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində təsbit olunmuş yaşamaq hüququ da (müharibənin hüquqauyğun aparılması nəticəsində, baş verən ölüm halları istisna olmaqla) daxil edilmiş və bu hüquqların məhdudlaşdırılması və onlara dair qeyd-şərtlərin edilməsi düzünə göstərişlə qadağan edilmişdir. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanununun 38-ci maddəsinə əsasən, evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlərlə tezləşdirmək, həyatın davam etməsinə kömək edən süni tədbirlərin dayandırılması qadağandır. Xəstənin bilərəkdən evtanaziyaya meyil etdirən və ya evtanaziya edən şəxs qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsi soyqırımı cinayətinə görə məsuliyyət müəyyən edir. CM-in 103-cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun, bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəpaiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə - on ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 105-ci maddəsi əhalini məhv etmə cinayətinə görə məsuliyyət müəyyən edir. Soyqırımı əlamətləri olmadan əhalini, bütövlükdə və ya qismən məhv etmə - on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120-ci maddəsi qəsdən adam öldürmə cinayətinə görə məsuliyyət müəyyən edir. 10 Qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə - yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Qəsdən bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə; xuliqanlıq niyyəti ilə adam öldürmə; zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə; xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə; tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürmə; başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürmə; iki və ya daha çox şəxsi öldürmə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə; təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə, habelə adam oğurluğu və ya girov götürülməsi ilə bağlı adam öldürmə; təkrar adam öldürmə; ? quldurluq, hədə-qorxu ilə tələb etmə və ya banditizmlə əlaqədar adam öldürmə; milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə on iki ildən-on beş ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin maddələri ilə qəsdən adam öldürməyə görə məsuliyyət müəyyən olunmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş şəxs tərəfindən bu məcəllənin 120-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi, onun təkrar törədilməsi hesab olunur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 121-ci maddəsi ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinə görə məsuliyyət nəzərdə tutur. CM-in 121-ci maddəsinə əsasən, ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi - üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

> "Bakı şəhərində, habelə respublikanın müxtəlif şəhər və rayonlarında əhali ilə geniş ünsiyyət yaratmaqla görüşlər və qəbullar keçirilir, əhali qrupları ilə canlı ünsiyyət yaradılır, zəruri izahat işi aparılır, hüquqi məsləhətlər verilir, insanları narahat edən problem və çətinliklər müəyyən edilir, mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə bələdiyyələrlə əməkdaşlıqda müvafiq tədbirlər görülür"

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 16 yanvar

## Afrikada dünyanın ən iri beşinci almazı tapılıb

Dünya tarixində ən böyük almazlardan biri "Gem Diamonds Ltd" kompaniyasının Lesotoda yerləşən "Letseng" mədənində aşkarlanıb. İnterfax informasiya agentliyi xəbər verir ki, xüsusi dərəcədə keyfiyyətli olan qiymətli daşın çəkisi 910 karatdır. Rəngsiz (D şkalası) daş IIa tipinə aiddir, yəni onun tərkibində demək olar, azot və ya bor qatışığı yoxdur; dünyada belə almazlar 1 faizdən az hasil olunur. O, böyüklüyünə görə indiyə qədər dünyada aşkar olunan beşinci, Lesotoda isə birinci almazdır.



Tapıntının ardından yanvarın 15-də Londonda keçirilən hərracda "Gem Diamonds Ltd" kompaniyasının aksiyaları 13 faiz bahalaşıb. "Letseng" mədəni almazlarının keyfiyyətinə və ölçülərinə görə məşhurdur. 2006-cı ildən bəri dünyanın ən iri 20 ağ almazının dördü burada tapılıb. Onların arasında rekord 603 karatlıq "Lesotonun vədi" (Lesotho Promise) almazına məxsusdur. Xüsusi keyfiyyət bu mədənin tapıntılarına ən yüksək orta dəyər təmin edir - 1 karatına görə 2 min dollara qədər. Qeyd edək ki, ötən il 1 karat almazın orta qiyməti 120 dollar olub.

Kompaniya hələlik yeni almaz barədə planlarını bildirmir. "Liberum" broker şirkəti isə "Letseng" rekordçusunu ilkin olaraq 40 milyon dollar həcmində qiymətləndirib. Kanadanın "Lucara Diamond" kompaniyası ötən il çəkisi 1100 karatdan yuxarı olan "Lesedi la Rona" almazını 53 milyon dollara (1 karat üçün 47,8 min dollar) satmışdı. Bir il öncə isə kompaniya daha kiçik - 813 karatlıq daşdan 63 milyon dollar gəlir əldə etmişdi.

Qeyd edək ki, çəkisinə görə dünya rekordçusu 3106 karatlıq "Kullian" almazıdır. O, 1905-ci ildə Cənubi Afrika Respublikasında tapılıb. Almazın dəyəri 2 milyard dollar həcmində qiymətləndirilsə də, hərraclara heç vaxt çıxarılmayıb. Böyük Britaniya kralı VII Eduarda bağışlanan "Kullian" 9 iri və 96 kiçik brilyanta parçalanıb. Hazırda onların ən iriləri Britaniya tacını bəzəyir. Uzun müddət dünyanın ikinci ən böyük almazı sayılan "Ekselsior" (995,2 karat) 1893-cü ildə müasir CAR-ın ərazisində aşkarlanıb. Hazırda o öz yerini "Lesedi la Rona" almazına buraxaraq üçüncü pilləyə enib. Siyahıda dördüncü yerdə isə çəkisi 969 karat olan "Serra-Leone Ulduzu" qərarlaşıb.

## Con Kennedinin arvadına yazılan sevgi məktubu 123 min dollara satılıb

Böyük Britaniyanın ABŞ-dakı keçmiş səfiri Deyvid Ormsbi-Qorun Con Kennedinin həyat yoldaşı Jaklin Kennediyə yazdığı sevgi məktubu hərracda 123 min dollara satılıb. 60-cı illərdə ABŞ-da səfir olan Deyvid Ormsbi-Qorla Amerikanın o vaxtki prezidenti Con Kennedi ailəlikcə dost olublar. Con Kennedi və səfirin həyat yoldaşı öldükdən sonra isə Deyvid Ormsbi-Qorla Jaklin Kennedinin münasibətləri daha da yaxınlaşıb.



Hərracda satılan məktubda diplomat keçmiş birinci xanıma evlənməyi təklif edir. Lakin Jaklin ona rədd cavabı verir. Xanım Kennedinin diplomata sonrakı məktubu yunan milyarderi Aristotel Onassislə evlilikdən sonra yazılıb və burda ona "sevimli qardaşım" kimi müraciət edilir. Qeyd edək ki, məktublar bu ilin əvvəlində tapılıb.

## Şəhriyar Məmmədyarov Veyk-an-Zeye turnirində birinci qələbəsini qazanıb



Hollandiyanın Veyk-an-Zeye şəhərində nüfuzlu şahmat turniri davam edir. AZƏRTAC xəbər verir ki, 80-ci "Tata Still Chess" festivalının ikinci turunda qara fiqurlarla oynayan Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov 48-ci gedişdə çinli Hou İfana qalib gəlib. Sergey Karyakin (Rusiya) Vişvanatan Anandla (Hindistan) heç-heçə oynayıb. Vladimir Kramnik (Rusiya) Aniş Giriyə (Hollandiya) uduzub. Pyotr Svidler (Rusiya) Vey İ (Çin) ilə, Maksim Matlatkov (Rusiya) Uesli So (ABŞ) ilə heç-heçə oynayıb. Dünya çempionu Maqnus Karlsen (Norveç) Başkaran Adhibanı (Hindistan) məğlub edib. Fabiano Karuana (ABŞ) və Qaveyn Cons (İngiltərə) heç-heçə qurtarıblar.

Aniş Giri iki turdan sonra hamıdan irəlidədir. İki qələbədən sonra onun hesabında iki xal var. Onun ardınca Şəhriyar Məmmədyarov, Maqnus Karlsen və Vişvanatan Anand (hər biri 1,5 xal), Qaveyn Cons, Fabiano Karuana, Sergey Karyakin, Uesli So, Vladimir Kramnik, Pyotr Svidler (hər biri 1 xal), Vey İ, Maksim Matlakov, Başkaran Adhiban (hər biri 0,5 xal) və Hou İfan (0) gəlir. Üçüncü turda Məmmədyarov - Matlakov, Svidler - Giri, Anand - Karuana, Karlsen - Vey İ, So - Karyakin, Cons - Adhiban, Kramnik - İfan qarşılaşacaq. Veyk-an-Zeyedəki turnir yanvarın 28-də başa çatacaq.

## "Liverpul" Qvardiolanın komandasını darmadağın edib!



Futbol üzrə İngiltərə Premyer Liqasının 23-cü turunun mərkəzi oyununda "Liverpul" turnir cədvəlində ilk sırada yer alan "Mançester Siti"ni qəbul edib. Gərgin idman mübarizəsi şəraitində keçən oyunda "Liverpul" çempionatın liderini 4:3 hesabı ilə məğlub edərək, top fərqinə görə turnir cədvəlində üçüncü sıraya yüksəlib.

Pep Qvardiolanın baş məşqçisi olduğu komanda Premyer Liqada cari mövsümdə ikinci dəfə məğlub olub. "Mançester Siti" 2017-ci il aprelin 5-dən bəri çempionatda uduzmurdu. O zaman şəhərlilər "Çelsi" ilə oyunda 1:2 hesabı ilə məğlubiyyətə uğrayıblar. Xatırladaq ki, hazırda "Mançester City" 22 oyundan 63 xal toplayaraq turnir cədvəlinə başçılıq edir. "Mançester Yunayted" və "Liverpul" 47 xalla ikinci-üçüncü yerləri bölüşürlər. Eyni xala malik "Çelsi" isə dördüncü sırada qərarlaşıb.

## "Neftçi" yığma komandanı məğlub edib

neftchipfk.com

Çempionatın ikinci hissəsinə hazırlığı davam etdirən "Neftçi" PFK-nın əvəzedici komandası təlim-məşq toplanışı çərçivəsində ilk yoxlama oyununu keçirib. SİA-nın məlumatına görə, əvəzedicilər "Dalğa Arena"da U-19 milli komandası ilə qarşılaşıblar. "Neftçi"nin 1:0 hesablı qələbəsi ilə nəticələnmiş görüşdə yeganə qolu Tural Əliyev vurub. Xatırladaq ki, əvəzedicilərin yanvarın 21-də "Səbail"in U-19, 24-də "Keşlə"nin əvəzediciləri, 28-də isə "Neftçi"nin U-19 komandası ilə hazırlıq matçları nəzərdə tutulub. Yanvarın 30-da planlaşdırılan yoxlama görüşü haqda isə rəqib dəqiqləşəndən sonra məlumat veriləcək.

## Rayan Qiqqz Uels yığmasının baş məşqçisi oldu



Futbol üzrə Uels milli komandasının yeni baş məşqçisi müəyyənləşib. Uels Futbol Assosiasiyası Rayan Qiqqz ilə dördillik müqavilə imzalayıb. Baş məşqçi postuna səsvermə zamanı R.Qiqqz digər əfsanəvi uelsli futbolçu Kreyq Bellamini qabaqlayıb. Qeyd edək ki, Qiqqz bu postda Kris Koulmeni əvəzləyib. Belə ki, Uels millisi dünya çempionatının final mərhələsinə vəsiqə qazana bilmədiyi üçün məşqçi ilə yollar ayrılmışdı.

## "Stok Siti"nin yeni baş məşqçisi müəyyənləşdi



"Stok Siti" futbol klubunun yeni baş məşqçisinin kimliyinə aydınlıq gəlib. SİA-nın məlumatına görə, 48 yaşlı Pol Lambert komandanın sükanı arxasına keçib. Onunla 2020-ci ilin yayına kimi müqavilə imzalanıb. Lambert bu postda yanvarın əvvəlində istefaya göndərilən Mark Hyuzu əvəzləyib. Premyer Liqada geridə qalan 23 turdan sonra "Stok Siti" turnir cədvəlinin 18-ci pilləsində qərarlaşıb. Pol Lambertin son iş yeri "Vulverhempton" olub.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**